# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib



5

SƏS
№ 077 (7245)
7 may 2025-ci il.
Qiymәti 60 qәpik

# Azərbaycan-Belarus:
## münasibətlərdə etimad və strateji tərəfdaşlıq



2

**Prezident İlham Əliyev: "Azərbaycanla Belarus arasında əlaqələr möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanır"**

# Hayların qorxduqları ÇOX BÖYÜK PROBLEM



13

## Media subyektlərinin rəhbərləri ilə görüş keçirilib



5

## Gələn ay Rusiyaya vizasız gələnlər üçün yeni qaydalar qüvvəyə minəcək



16

## Qadının geyimi, yoxsa üzündəki ifadə önəmlidir?



12

## "Həyatımda silinməz izlər buraxan bu dövr üçün minnətdaram" - TƏLƏBƏLƏR DANIŞDI



7

## Bank kartlarından bir gündə 13 min manatdan çox pul oğurlanıb



16

# Azərbaycan-Belarus:
## münasibətlərdə etimad və strateji tərəfdaşlıq

### Prezident İlham Əliyev: "Azərbaycanla Belarus arasında əlaqələr möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanır"

Azərbaycan Belarus ikitərəfli əlaqələri müasir dövrümüzdə daha da dinamik inkişaf edir. Bu münasibətlər möhkəm dostluğa, qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanır və müasir dövrdə dövlətlər arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib. Belə ki, dövlətlərarası imzalanan sənədlər, qarşılıqlı səfərlər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə, qarşılıqlı etimad və dialoqa mühüm töhfə verir. Bu münasibətlərin formalaşmasında və inkişafında dövlət başçıları arasında səmimi dostluq münasibətləri, yüksək səviyyəli dialoq və qarşılıqlı anlaşma mühüm rol oynayır. Suverenliyini və ərazi bütövlüyünü təmin etmiş Azərbaycan bir çox dövlətlərlə yanaşı, Belarus Respublikası ilə də münasibətlərin daha da dərinləşməsi, yeni strateji səviyyəyə çatdırılması üçün böyük əhəmiyyət kəsb edən qərar, sənədlər qəbul edib ki, bu da dövlətlərarası əlaqələrin sürətlə inkişafına təkan verib. Belarus Respublikasının Baş naziri Aleksandr Turçinin ölkəmizə səfəri və səfər çərçivəsində aparılan danışıqlar dövlətlərarası mehriban dostluq əlaqələrinin olduğunu bir daha təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul edərkən bildirdiyi kimi, Azərbaycanla Belarus arasında əlaqələr möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanır. Dövlətimizin başçısı Aleksandr Turçinin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin məhz ölkələrimiz arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini bildirib. Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.





### "BELARUS ŞİRKƏTLƏRİNİ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİNİN BƏRPASINDA FƏAL İŞTİRAK ETMƏYƏ DƏVƏT ETMİŞƏM"

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun Baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib. Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Bu xüsusda Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulanıb. Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparılıb. Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verilib.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edilib. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad etdi. Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. İşğaldan azad olunan ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. "İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir", - deyə Prezident çıxışlarının birində bildirib. Prezident onu da bildirib ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir.

Azərbaycanla Belarus arasında iqtisadi-ticarət əlaqələr daha da genişləndirilir. Belarus şirkətlərinin işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı buna nümunədir. Belarus dövləti də dost ölkə olaraq bu prosesdə iştiraka öz töhfəsini verir. "Biz bir dost kimi bu prosesdə texnika, aqroşəhərciklər, iş yerləri ilə iştirak edə bilərik. İnsanları köçürmək, qaytarmaq olar, amma bunun üçün mənzillər, iş yerləri lazımdır. Bizim müəyyən texnologiyalarımız var, Sizin mütəxəssisləriniz, nazirləriniz bu texnologiyalara yaxşı bələddirlər. Əgər işə yarayarsa texnikamız burada olar və işləyər" - deyə Belarus Respublikasının Prezidenti Azərbaycana səfəri zamanı bildirmişdir.

### AZƏRBAYCAN DÜNYA ŞƏHƏRSALMA FORUMUNA EV SAHİBLİYİ EDƏCƏK

Görüşdə ölkələrimiz arasında şəhərsalma sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyinə də toxunulub. Məlumdur ki, Belarusun şəhərsalma təcrübəsi, müasir texnologiyaları, aqroşəhərciklərin tikintisi təcrübəsi var.

Xatırladaq ki, bir ilə əvvəl Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana səfəri zamanı mətbuata bəyanatla çıxışında Azərbaycanın azad etdiyi ərazilərdə xüsusən aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastruktur yaratmağa, iş yerləri açmağa, yeni, komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazır olduqlarını diqqətə çatdırmışdı. Onu da bildirmişdi ki, işğaldan azad olunan torpaqlarımızda dost ölkə tərəfindən ilk növbədə, iş yerləri olan aqroşəhərcik tikiləcəkdir. "Biz orada sizin üçün evlər yaratmağa hazırıq. Belarusda taxta evlər təcrübəsi geniş yayılıb. Evi hissələrlə vaqonlarda gətiririk, bir həftə ərzində bünövrəsi üzərində tikib qurtarırıq. Biz Belarusda bu cür edirik. Əgər sizə uyğun gələrsə, biz tədarük edə və sizin dirçəldilən ərazilərdə belə evlər tikə bilərik. Bir sözlə, çox böyük planımız var. Biz işləməyə davam edəcəyik".

Dövlətimizin başçısı 2026-cı ildə Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, Belarusu da bu tədbirdə yaxından iştiraka dəvət edib. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi də aparılıb.

### QARŞILIQLI HÖRMƏTƏ VƏ ƏMƏKDAŞLIĞA ƏSASLANAN KREATİV TƏRƏFDAŞLIQ

Bildiyimiz kimi, dövlətlər arasında kənd təsərrüfatı, iqtisadiyyat, hərbi-texniki, sosial-müdafiə, hüquq-mühafizə və digər sahələri əhatə edən sənədlər var. Əlbəttə ki, Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu münasibətlərin dərinləşməsində mühüm rola malikdir. Prezident İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk: "Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur". Dövlətimizin başçısı bildirib ki, bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür.

### DİPLOMATİK MÜNASİBƏTLƏR

İki ölkə arasında diplomatik əlaqələr 1993-cü ilin iyun ayının 11-də qurulmuşdur. 2006-cı ilin fevral ayında Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda Səfirlikləri açılmışdır. Bu münasibətlər xalqlarımızı birləşdirən mehriban dostluq ənənələrinə, qarşılıqlı hörmətə və etimada söykənir. Vurğulayaq ki, 18-19 noyabr 2018 -ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun 28-29 noyabr 2016-cı il tarixində, 13-14 aprel 2021-ci il tarixində, daha sonra 2024-cü ilin may ayında Azərbaycana rəsmi səfərləri bu əlaqələrin daha da möhkəmlənməsinə səbəb olmuşdur. Hazırda Azərbaycan və Belarus arasında bir çox sahələrdə, eləcə də hərbi-texniki sahədə də uğurlu əməkdaşlıq vardır. Bildiyimiz kimi, Azərbaycanla Belarus arasında hərbi-texniki sahəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barəsində Anlaşma Memorandumu imzalanıb. Əlbəttə ki, ölkələrarası əməkdaşlığın istiqamətlərindən biri də hərbi-texniki sahədir. Bir sözlə, Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir. Onu da bildirək ki, Azərbaycanla Belarus beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstərir, bütün məsələlərdə bir-birini dəstəkləyirlər.

### REGİONUN TƏRƏQQİSİ İLƏ BAĞLI YENİ BAXIŞLAR

Hazırda Azərbaycan ilə Belarus arasında qarşılıqlı ticarət fəaliyyətində 270-dən çox müəssisənin iştirakı ilə 300 çeşiddən artıq malın iki ölkə ərazisində qarşılıqlı təchizatı həyata keçirilir. Onlarla Azərbaycan şirkəti Belarus müəssisələrinin respublikamızda qanuni nümayəndəsi və təmsilçisi fəaliyyət göstərirlər. Ölkəmizdə Belarus kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən xüsusi təyinatlı mağazalar fəaliyyət göstərir.

İqtisadi sahədə əlaqələrin genişləndirilməsində birbaşa əmtəə ticarəti ilə yanaşı, qarşılıqlı faydalı birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də getdikcə mühüm əhəmiyyət kəsb edir. Belarus maşınqayıranları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlığa sənaye kooperasiyası sahəsində səmərəli qarşılıqlı fəaliyyətin gözəl nümunəsi kimi ölkələr üçün əlamətdar layihəyə çevrilib. Belarus tərəfi Azərbaycana lift tədarükünün artırılmasında, eləcə də müvafiq istehlak həcmləri üçün onların yığılması istehsalının yaradılmasında maraqlıdır. Ölkələrimiz arasında çoxşaxəli müqavilə-hüquqi bazası yaradılıb. Təbii ki, iki ölkənin rəhbərliyi səviyyəsində sıx münasibətlər əlaqələrin demək olar ki, bütün sahələrində öz əksini tapıb. Azərbaycan və Belarus arasında olan strateji əməkdaşlıq əlaqələri hər iki ölkənin perspektiv inkişafı baxımından, xüsusi əhəmiyyət kəsb edir. Bu əlaqələr, eyni zamanda, regionun tərəqqisi ilə bağlı yeni baxışlar formalaşdırır.

***Zümrüd BAYRAMOVA***

# Dini ziyarətgahlarımıza yeni həyat verilir

## Dövlət başçısının Sərəncamı ilə ziyarətgahlarda təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılıb



Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən sabitliyin məntiqi nəticəsi olaraq bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsinə də xüsusi diqqət ayrılır. Dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Söz yox ki, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənənələrə də böyük hörmətlə yanaşan bir ölkədir. Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşməsi, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması fikirlərimizə əsas verir. Təbii ki, bu Azərbaycanın iqtisadi gücü olması ilə yanaşı, ölkədə dini dözümlüyün, əmin-amanlığın hökm sürməsi də mühüm faktorlar sırasındadır. "Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bunun daha bir təzahürüdür. Sərəncama əsasən, Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 550,0 (beş yüz əlli) min manat vəsait ayrılıb.

### İMAM MƏSCİDİNDƏ TƏMİR-BƏRPA İŞLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNƏ DÖVLƏT BÜDCƏSİNDƏN 600,0 (ALTI YÜZ) MİN MANAT VƏSAİT AYRILIB

Dünya xalqları arasında özünəməxsus yeri olan Azərbaycan bəşəri ideyaları, adət-ənənələri, maddi və mənəvi xəzinəsi ilə zəngin irsə sahibdir. Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi dünyaya töhfəsini verir. Bu sahəyə dövlət qayğısının artması dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra xalqımızın dini-mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, din və vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərini tənzimləyən qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, dini abidələrin, məscidlərin, ibadət evlərinin təmir və bərpa olunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edib. Təbii ki, görülən bu işlərdə əsas məqsəd vətəndaşların rahat ibadət etmələrini təmin etməkdir. Azərbaycan Prezidentin imzaladığı daha bir Sərəncam isə "Bakı şəhəri Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən İmam məscidində təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında"dır. Sərəncama əsasən, Bakı şəhəri Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən İmam məscidində təmir-bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 600,0 (altı yüz) min manat vəsait ayrılıb.

### "AZƏRBAYCAN O ÖLKƏDİR Kİ, ÖZ İNKİŞAFINI, ÖZ GƏLƏCƏYİNİ MİLLİ KÖKLƏR ÜZƏRİNDƏ QURUBDUR"

Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Prezident İlham Əliyev çıxışlarının birində bildirib ki, "Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur". Müstəqillik dövründə yüzlərələ dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirildi. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır. Xüsusi olaraq vurğulayaq ki, paytaxtımızda Heydər Məscidi kimi Cənubi Qafqazın ən böyük və müasir məscidi tikilib. Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan layihəsi çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib.



### "DİNLƏRARASI, MİLLƏTLƏRARASI MÜNASİBƏTLƏR ƏN YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNUR"

Tolerantlıq məkanı olan Azərbaycanda paytaxt Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin daha bir göstəricisi oldu. Məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdisə. indi daha müasir və geniş məscid kompleksində eyni zamanda, 1800 nəfərin ibadət etməsinə şərait yaradılıb. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Onu da vurğulayaq ki, kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub.

Bəli, dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib. Cənab İlham Əliyevin bildirdiyi kimi, bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər: "Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur".

### AZƏRBAYCAN TARİXİ KEÇMİŞİNƏ SADİQDİR

Dövlət başçısının tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, dövlətimizin başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Son illərdə Azərbaycanda yeni məscidlərin tikilməsi və və ya təmir edilməsi milli-mənəvi dəyərlərimizə olan diqqətdir. Təbii ki. Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı illərdə müsəlman məbədləri ilə yanaşı, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri də həyata keçirilmişdir ki, bu da Azərbaycanda dini tolerantlığın nümunəsidir. Əminliklə deyə bilərik ki, bu, Azərbaycanda dövlət siyasətinin real mənzərəsinin ifadəsidir.

Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyətdədir. Əlbəttə ki, bu böyük göstəricidir. Öz dini müxtəlifliyi ilə fəxr edən Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Bütün xalqların nümayəndələrinin ölkəmizdə azad və əmin-amanlıq şəraitində dini bayramlarını qeyd etmələri onu göstərir ki, ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən qürur hissi ilə deyə bilərik ki, bəli, Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzinə çevrilib. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.

### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPASI İŞLƏRİ UĞURLA HƏYATA KEÇİRİLİR

Heydər Əliyev Fond tərəfindən həyata keçirilən layihələr də Qarabağın maddi-mədəni irsinin bir parçası olan dini abidələrimizin bərpası baxımından təqdirəlayiqdir. Bu günə qədər ölkəmizdə Heydər Əliyev Fondu tərəfindən onlarla dini abidə, məscid və ziyarətgah bərpa edilərək, xalqımızın ixtiyarına verilib. Bu baxımdan, Qarabağın dini abidələrinin bərpa edilərək, yenidən vətəndaşların ixtiyarına verilməsi təqdirəlayiqdir. Qarabağdakı dini abidələrimizin bərpa edilməsi prosesinin başlanması Azərbaycan tərəfindən tarixi gerçəklik missiyasının, ədalətin bərpası deməkdir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tarixi müqəddəs layihəsi uğurla həyata keçirilir. Heydər Əliyev Fondunun işğaldan azad edilən ərazilərimizdəki dini abidələrimizi bərpa etməklə, tarixi irsimizə, dini abidələrə verilən böyük dəyərin, qiymətin təzahürüdür. Bildiyimiz kimi, ermənilər Ağdam məscidində, Şuşadakı Yuxarı Gövhər ağa məscidində və digər abidələr üzərində barbarlıq edərək, tarixi irsimizə qarşı vandallıq əməllərini həyata keçiriblər. Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası olaraq. Dini abidələrin də bərpa və təmirinə töhfəsini verir. Artıq Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışı olub. Fond tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi və mədəniyyət abidələrinin bərpası işləri uğurla həyata keçirilir. İndiyə qədər Ağdam Cümə məscidi, Şuşa şəhərində yerləşən Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri aparılan bərpa işlərindən sonra istifadəyə verilib. Zəngilan məscidinin açılışı da bu sıradadır. Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İlham Əliyev: “Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir”

## Azərbaycan Prezidenti İlham Əliyev "Vietnam News Agency" agentliyinə müsahibə verib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının ”Vietnam News Agency” agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir:***

***-2025-ci il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Azərbaycan Respublikasına dövlət səfəri edəcək. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın indiki vəziyyətini necə qiymətləndirirsiniz?***

- Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib.

Mənim 2014-cü ildə ölkənizə dövlət səfərim və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətlərdə yeni səhifə açdı və onların gələcək inkişafına təkan verdi. Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan-Vyetnam biznes forumu keçirildi.

Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli reallaşdırılmasında mühüm platformadır.



### Prezident: "Azərbaycanla Vyetnam arasında mədəni əlaqələr müxtəlif təşəbbüslər vasitəsilə inkişaf etməkdədir"

Xarici İşlər nazirliklərinin xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu il aprelin ikinci yarısında keçirilib. Hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir.

Ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur.

Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. 2019-cu ildə Vyetnamın ”Binh Son Refinery and Petrochemical Company” ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlığımız möhkəm tarixi təmələ əsaslanır - çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında əsas rol oynayıblar. Təsadüfi deyil ki, 1981-ci ildə Sovet İttifaqının köməyi ilə yaradılan ”Veso Petrol” müştərək müəssisəsinin ilk baş direktoru azərbaycanlı Cəlal Məmmədov olub.

Mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığımızın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün ”Vyetnam süitası”nı bəstələyib, onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959-1962-ci illərdə Prezident Ho Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib və üç film çəkib. O, bu xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının ali ”Əmək” ordeni ilə mükafatlandırılıb.

Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur. Mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi.

Ölkələrimiz arasında mədəni əlaqələrdən söz düşmüşkən qeyd etmək istərdim ki, onlar müxtəlif təşəbbüslər və layihələr vasitəsilə inkişaf etməkdə və möhkəmlənməkdə davam edir. Məsələn, 2024-cü ildə Bakıda sizin əsgərlərin Vyetnam müharibəsində qəhrəmanlığına həsr edilmiş ”Əfsanə yaradanlar” filminin nümayişi oldu. Həmin il paytaxtımızda Vyetnam Lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illiyi münasibətilə Vyetnam Günləri keçirildi.

Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. Bu ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib. Beləliklə, Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir.

### Prezident İlham Əliyev: "Azərbaycanla Vyetnam əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir"

***-İkitərəfli münasibətlərin yeni səviyyəyə qaldırılması kontekstində Vyetnam Liderinin Azərbaycana qarşıdakı səfəri nə kimi əhəmiyyətə malikdir?***

-Məlum olduğu kimi, cənab Lamın qarşıdakı səfəri onun Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi qismində ilk səfəri olacaq. Tərəflərin ikitərəfli münasibətlərin dərinləşdirilməsi səylərini əks etdirən və qarşılıqlı fəaliyyətdə yeni istiqamətlər açan bu hadisə böyük siyasi əhəmiyyətə malikdir. Bu kontekstdə səfəri haqlı olaraq Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar.

Səfər proqramına ikitərəfli gündəliyin əsas aspektlərini əhatə edən məsələlərin geniş dairəsi daxildir. Bu, aktual mövzulara dair hərtərəfli fikir mübadiləsi aparmağa, yanaşmaları razılaşdırmağa və gələcəkdə qarşılıqlı fəaliyyətin perspektiv istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək. Siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək.

Bundan başqa, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq.

İnanıram ki, cənab Lamın səfəri daha fəal əməkdaşlığa mühüm təkan olacaq, Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açacaq.

***-Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün hansı perspektivlər və potensial mövcuddur?***

-Hesab edirəm ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmdir. Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı - bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir.

Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər. Bu, akademik mübadilə, elmi tədqiqatlar və Azərbaycanla Vyetnam arasında şəxsi təmasların möhkəmləndirilməsi üzrə imkanları yaxşılaşdıracaq. Mübadilə proqramlarının reallaşdırılması, həmçinin elmi-texniki sahədə əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün daha bir perspektivli istiqamətə çevrilə bilər.





# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev iştirak ediblər.***





Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Nazir Anar Əliyev Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanı o zamankı ittifaq məkanında geridə qalan aqrar respublikalar sırasından dinamik inkişaf edən qabaqcıl respublikalar sırasına çıxardığını vurğulayıb. Bildirib ki, Ulu Öndərin 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas edib.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin ölkəmizin sosial inkişaf strategiyasını da formalaşdırdığını diqqətə çatdıran nazir qeyd edib ki, Ulu Öndərin müəllifi olduğu, 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında da Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunub. Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi nəticəsində Azərbaycan mühüm tarixi nailiyyətlərə imza atıb, möhtəşəm tarixi Zəfər qazanıb.

Dövlətimizin başçısının tapşırıqları əsasında son illər icra olunan ardıcıl sosial islahatların uğurlarını diqqətə çatdıran Anar Əliyev Ulu Öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının nazirlik üzrə Yasamal rayonu, Salatın Əsgərova 85 ərazi partiya təşkilatının fəaliyyətini qeyd edib. Nazirliyin Aparatında və tabeliyindəki qurumlarda 96 ərazi partiya təşkilatının yaradıldığı, nazirlik sistemi üzrə YAP üzvləri olan əməkdaşların sayının 5 min 500-ə yaxın olduğu bildirilib.

Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, hələ sovet dövründə Ulu Öndərin gördüyü böyük işlərin Azərbaycanın sonralar müstəqil dövlət kimi inkişaf etməsində mühüm rola malik olduğunu, respublikamıza rəhbərliyə qayıtdıqdan sonra müstəqil Azərbaycan dövlətini quraraq onu uzunmüddətli tərəqqi yoluna çıxardığını qeyd edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan nəinki regionda lider dövlətdir, həmçinin böyük bir coğrafiyanı əhatə edən məkanda söz sahibi kimi böyük nüfuza malikdir. Sonra nazirlik sistemində çalışan əməkdaşlardan daha 144 nəfərə YAP-ın üzvlük vəsiqələri təqdim olunub. Partiyaya yeni üzv qəbul olunan əməkdaşlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını ifadə ediblər.

# Media subyektlərinin rəhbərləri ilə görüş keçirilib

***Mayın 6-da Medianın İnkişafı Agentliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərliyi ilə görüş keçirilib. SİA-nın məlumatına görə, Agentlikdən bildiriblər ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru, Müşahidə Şurasının üzvləri, televiziya kanallarının, informasiya agentliklərinin, bir sıra aparıcı çap və onlayn media subyektlərinin rəhbərləri iştirak ediblər.***



Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində bu gün media Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. O medianın ictimai-siyasi və mədəni həyatdakı yerinə, mədəniyyətin, maarifçiliyin inkişafında roluna diqqət çəkərək bundan sonrakı mərhələdə də eyni funksiyaları yeni dövrün tələblərinə uyğun qurmalı olduğunu qeyd edib, rəqəmsal transformasiya şəraitində informasiya təhlükəsizliyinin əhəmiyyətini vurğulayıb, dövlət-media münasibətləri, medianın aktual məsələləri barədə fikirlərini bölüşüb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov isə Agentliyin fəaliyyət istiqamətlərindən, həyata keçirilən tədbirlərdən, media sahəsində aparılan islahatların nəticələrindən və sahənin inkişaf perspektivlərindən danışıb. Müzakirələr zamanı qeyd olunub ki, Milli Mətbuatın 150 illiyi çərçivəsində müxtəlif beynəlxalq və yerli səviyyəli tədbirlərin təşkili, tanınmış xarici media subyektlərinin tərəfdaşlığı ilə inkişaf proqramlarının həyata keçirilməsi, habelə Azərbaycan mətbuatının tarixini və bu gününü təcəssüm etdirən, bu istiqamətdə cəmiyyətin məlumatlandırılmasına yönəlmiş digər layihələrin icrası planlaşdırılır. Görüşdə media rəhbərlərinin təklifləri dinlənilib, media sahəsinin gələcək inkişafı və müasir çağırışlar barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

# AMEA-80

# Zəkanın işığında addımlayan elmimiz



Azərbaycan elmi əsrlərin dərinliklərinə gedib çıxan zəngin tarixi ilə seçilir. Tarixin müxtəlif dövrlərində Azərbaycan alimləri elmin müxtəlif sahələrində əhəmiyyətli nailiyyətlər əldə etmiş və Şərq ilə Qərb arasında elm körpüsünü yaratmışlar. Elmin inkişafı Azərbaycanın qədim dövrlərindən başlamış, İslam mədəniyyətinin təsiri ilə bilik və elmin yayılması sürətlənmişdir. Orta əsrlərdə Azərbaycanın Təbriz, İsfahan, Xoy, Naxçıvan, Ərdəbil, Marağa, Şamaxıvə digər şəhərlərində çoxsaylı elmi mərkəzlər, mədrəsələr və kitabxanalar inkişaf etmişdir. Bütün bunlar Azərbaycan elminin vahid tərkib hissələri olmaqla yanaşı, həm də elmi-ictimai və bədii-fəlsəfi düşüncəmizin mərkəzləri idilər.

Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Nəsirəddin Tusi,Əbdürrəşid Bakuvi, Xətai kimi dahi Azərbaycan mütəfəkkirləri elmi və mədəni irsin inkişafında böyük rol oynamışlar. Xüsusilə Nizami Gəncəvinin fəlsəfi və etik görüşləri, təkcə Azərbaycan deyil, bütün Şərq dünyası üçün dəyərli töhfələrdir. XIX əsrdə baş vermiş ictimai-siyasi hadisələrin geniş vüsət alması nəticəsində Azərbaycanın təhsil ocaqlarında dünyəvi elmlərin öyrənilməsinə başlanılmış, nəticədəAbbasqulu Ağa Bakıxanov, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə, Mirzə Kazımbəy, Mirzə Ələkbər Sabir, Mirzə Cəfər Topçubaşov kimi mütəfəkkirlər,düşüncə sahibləri meydana çıxmışlar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycanlı gənclərin Avropanın qabaqcıl ali məktəblərinə təhsil almaq üçün göndərilməsi, Bakı Dövlət Universitetinin yaradılması Azərbaycan elminin və intellektual dəyərlərinin formalaşması istiqamətində ən böyük və mühüm addımlar idi.

1923-cü ildə elmi-tədqiqat işləri aparmaq məqsədilə Azərbaycanın bir qrup tanınmış ziyalılarının təşəbbüsü ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılmışdı. Cəmiyyətin qurucuları ciddi elmi prinsiplərə və müasir tədqiqat metodlarına əsaslanaraq Azərbaycan dilini, tarixini, folklorunu, adət-ənənələrini, məişətini etnoqrafiyasını araşdırmışlar. ATTC-nin iki illik fəaliyyətini dəyərləndirərkən hökumət adından şıxış edən xalq maarif komissarı Mustafa Quliyev qeyd edir ki, "bu cəmiyyətin fəaliyyəti gələcəkdə Azərbaycan Elmlər Akademiyasının yaranmasını təmin edəcək".

1929-cu il oktyabrın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna çevrildi. AzDETİnin yaradılması elmi qüvvələrdən səmərəli istifadəyə mürəkkəb problemləri kompleks şəkildə həll etməyə geniş imkanlar yaratdı. Gələcək Elmlər Akademiyasının sələfi olan bu qurum milli mədəniyyətimizin elmi əsaslar üzərində təşəkkülündə misilsiz xidmətlər göstərmiş oldu. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 29 dekabr 1932-ci il tarixli qərarı ilə Az.DETİ-nin və Azərbaycan Təbii Məhsuldar Qüvvələrin Öyrənilməsi İnstitutunun bazasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradıldı. Mövcud olduğu qısa müddət ərzində bu elmi qurumda qiymətli fundamental araşdırmalar aparılmış, təbiət, texnika və ictimai elmlər sahəsində elmi tədqiqatların miqyas və perspektivlərinin əhəmiyyətli dərəcədə genişlənməsinə şərait yaradılmışdı.

25 oktyabr 1935 ci ildə SSRİ Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə SSRİ EA-nın Azərbaycan Filialı yaradılmış və elə həmin ilin oktyabrında Bakıya gələn SSRİ EA-nın vitse-prezidenti V.L.Komarov Azərbaycan Filialını "özünün laboratoriya və institutlarında bir sıra konkret problemləri həll etməyə müvəffəq olmuş iri elmi təşkilat və İttifaq Elmlər Akademiyasının ən yaxşı filiallarından" hesab etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əsası 1945-ci ildə qoyulmuşdur. Elmin müasir inkişafında mühüm rol oynayan AEA-nın yaradılması Azərbaycanda elmi tədqiqatların təşkilatlanması və sistemli araşdırmaların aparılması məqsədini daşıyırdı.

Çox mürəkkəb bir proses olan Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması SSRİ EA-nın və Azərbaycan SSR Xalq Komissarları Şurasının təqdimatı əsasında 23 yanvar 1945- ci il tarixli qərarla baş tutdu. Qərardan irəli gələn hazırlıq işləri başa çatdıqdan sonra Azərbaycan SSR Xalq Komissarları Soveti öz qərarı ilə 27 mart 1945-ci ildə SSRİ EA Azərbaycan filialı və respublikamızın bir sıra elmi-tədqiqat müəssisələrinin bazasında Azərbaycan SSR Elmlər Akademiyasını təsis etdi. Ümumiyyətlə, elm tarixi ilə məşğul olan mütəxəssislər Azərbaycan Elmlər akademiyasının tarixini bir neçə mərhələyə bölürlər:

Birinci mərhələ 1945-1960-cı illəri əhatə edir və akademiyanın yeni elmi-təşkilati əsaslarla formalaşması mərhələsidir.

İkinci mərhələ 1960-1970-ci illəri əhatə edir və ölkəmizdə baş verən bir sıra ictimai-siyasi hadisələrin təsiri ilə akademiyanın maddi-texniki bazasının geriləmələri ilə müşayiət olunmuşdu.

Üçüncü mərhələ1970-1980-ci illəri əhatə edir.Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan bu dövr akademiya tarixinin ən parlaq mərhələsidir.Həmin illərdə akademiyada dünya miqyaslı elmi proseslərin inkişafına təkan verən çoxsaylı elmi uğurlar əldə olunmuşdur. Bütün bu proseslər Ulu öndərin elmə, elm adamlarına müstəsna diqqəti və qayğısı nəticəsində mümkün olmuşdur.

Dördüncü mərhələ 1980-1990-cı illəri əhatə edir. Bu mərhələdə akademiyanın mövcudluğu qorunub saxlanılsa da ölkəmizdən xaricə çoxsaylı beyin axını baş vermiş, akademiya bağlanmaq təhlükəsi ilə baş-başa qalmışdı.

Müstəqillik illərində Ümummilli liderin ikinci dəfə hakimiyyətə gəlişi ilə akademiya tənəzzül mərhələsini geridə qoydu və özünün yeni inkişaf mərhələsinə qədəm basdı. Ulu öndərin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyası milli status qazandı, 4 yanvar 2003-cü il tarixli fərmanla AMEA-ya Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi-texniki siyasətini həyata keçirən dövlət elmi təşkilatı statusu verildi.

2003-cü ildən sonra Azərbaycan Respublikasının prezidenticənab İlham Əliyev tərəfindən elmi fəaliyyət sahəsinin inkişafına diqqət daha da artırıldı. Bu dövrdə İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi çoxsaylı qərarlar sırasında "2009-2015-ci illərdə Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya", 9 avqust 2016-cı ildə qəbul olunmuş "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, 9 aprel 2018-ci il tarixli sərəncamla 27 mart "Elm günü" nün təsis edilməsi mühüm yer tutur.

AMEA-nın yubiley tədbirləri də dövlət tərəfindən yüksək səviyyədə qeyd edilmişdir. Mövcud olduğu səksən il ərzində Akademiyanın yubileyi cəmi üç dəfə qeyd edilmişdir. İlk dəfə 1975-ci ildə Sovet Azərbaycanının rəhbəri Heydər Əliyevin müvafiq Sərəncamı ilə Elmlər Akademiyasının 30 illik yubileyi Respublika Sarayında keçirilmiş və Akademiya "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuşdur. Bundan sonrakı tarixi mərhələdə prezident İlham Əliyevin müvafiq sərəncamları və iştirakı ilə 2005-ci ildə Milli Elmlər Akademiyasının 60 illik, 2015-ci ildə isə 70 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir. Sevindirici haldır ki, Prezident İlham Əliyev 18 mart 2025-ci il tarixində AMEA-nın 80 illik yubileyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncam dövlət başçımızın yarandığı gündən bu günədək nailiyyətlərlə zəngin uzun bir yol qət edərək ölkəmizin elmi elitasını formalaşdıran, elmi- intellektual potensialımızı milli sərvətə çevirən bu elm məbədinə, orada çalışanların əməyinə verdiyi yüksək qiymətin bariz nümunəsidir. Və biz - Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları bu yüksək dəyərə və diqqətə görə Cənab Prezidentə dərin minnətdarlığımızı bildiririk.

Milli Elmlər Akademiyasının yubileylərinin dövlət səviyyəsində keçirilməsi akademiyanın və alimlərimizin fəaliyyətinə verilən ən yüksək qiymətdir. Elmin inkişafı və tədqiqat fəaliyyətinin genişləndirilməsi məqsədilə həyata keçirilən islahatlar, maliyyə dəstəyi və beynəlxalq elmi əməkdaşlıqlar akademiyanın fəaliyyətini gücləndirmişdir. Dövlət qayğısı nəticəsində akademiya təkcə ölkə daxilində deyil, beynəlxalq elmi arenada da öz yerini möhkəmləndirmişdir.

Akademiyanın struktur islahatları, yeni elmi istiqamətlərin inkişafı və innovativ layihələrin icrası ölkəmizin elmi potensialını daha da artırmışdır. Bu gün Azərbaycan elmi beynəlxalq əməkdaşlıq və yeni texnologiyaların tətbiqi sahəsində mühüm uğurlar əldə edir. Gənc alimlərin dəstəklənməsi və yeni nəsil tədqiqatçıların yetişdirilməsi üçün geniş imkanlar yaradılmışdır. Elmi-texniki nailiyyətlərin istehsalata tətbiqi, elmi innovasiyaların iqtisadi inkişafda rolu Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan elmi tarixi inkişaf yolunda böyük uğurlar əldə etmiş, müasir dövrdə də bu nailiyyətlər davam etməkdədir. Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illiyi münasibətilə keçiriləcək tədbirlər ölkəmizin elmi potensialının gücləndirilməsi və beynəlxalq nüfuzunun artırılması istiqamətində mühüm addım olacaqdır.

***Hüseyn Hüseynov***
***AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru,***
***texnika elmləri doktoru, dosent***
***Şəhla Tahirqızı***
***AMEA Mərkəzi Elmi Kitabxanasının direktor müavini,***
***filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent***

## "Bakcell" mobil tətbiqi süni intellekt dəstəkli təkliflər dövrünə keçir

### *İnnovasiya və sürət lideri*




"Bakcell" mobil tətbiqində süni intellekt texnologiyasından istifadə edərək, müştərilərə fərdiləşdirilmiş yeni təkliflər təqdim edib. Süni intellekt ilə yaradılan həllər abunəçilərin zəng və internet istifadəsi ilə bağlı vərdişlərini nəzərə alaraq, onlara uyğun kampaniya və tarif planlarını formalaşdırır. Müştəri davranışlarının təhlili ilə yaradılan kampaniya və tarif planları bildiriş şəklində istifadəçilərin nəzərinə çatdırılır. Bu yenilik sayəsində müştərilər vaxtlarına qənaət edərək, yaradılmış xüsusi təkliflərdən faydalana bilirlər.

Fəaliyyəti çərçivəsində müştəri məmnuniyyətini öndə tutan "Bakcell" daim istifadəçilərinin dəyişən ehtiyac və gözləntilərinə uyğun innovativ həllər təqdim edir. Beləliklə, "Bakcell" müasir texnologiyalara əsaslanan məhsul və xidmətləri ilə innovasiyanı gündəlik istifadəçi təcrübəsinin ayrılmaz hissəsinə çevirərək, müştəriyönümlü inkişaf strategiyasını uğurla davam etdirir.

# "Həyatımda silinməz izlər buraxan bu dövr üçün minnətdaram" - TƏLƏBƏLƏR DANIŞDI







***Tələbəlik, hər zaman olduğu kimi, insan həyatında özəl illərdən sayılır. Bu illər geri qayıtması mümkün olmayan illərdir. Universitet həyatı boyu bir çox yaxşı və pis xatirələr olur. Tələbələr bu illəri gah sevinc, yaxud da kədər dolu anlarla yaşayırlar. Bəs tələbələrin hiss və düşüncələri necədir? Dörd illik tələbəlik həyatı tələbələrin dünyagörüşünə və təəssüratlarına hansı təsirləri göstərmiş, hansı izlər buraxmışdır? SİA bu barədə tələbələr arasında sorğu keçirib.***

**Tələbə Əli Məlikov:** "Tələbəlik illəri bir gəncin yenicə çiçəklənən ömrünün ən gü-



nəşli zamanlarındandır. Bu vaxtlarda insan özünü düşünməyə məcbur hiss edir. Mənim tələbəlik illərim ömrümün bir parçası olmaqla, mənə yeni dostlar, bölünməz bağlar və ən əsası biliyin nələrə qadir olduğunu göstərmişdir.

Yaxşı tərəfləri olduğu qədər, insana çətin anlar da yaşada bilən tələbəlik, içimdəki "mən" anlayışını qavramaqda mənə hədsiz yardım edib. Zaman deyə adlandırdığımız bu gedişdə həm yaranın, həm də məlhəmin eyni anda bətnimizə təsiri məhz tələbəlik illərinin bizim güclü insan olmağımıza yardımını açıq-aydın göstərir".

**Tələbə Zeynəb Qələndərli:** "Dördillik tələbəlik həyatı gənclərin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Bu illər ərzində tələbələr müxtəlif insanlarla tanış olur və sosial bacarıqlarını inkişaf etdirirlər. Müxtəlif müəllimlərlə ünsiyyət onların düşüncə tərzini və dünyagörüşünü zənginləşdirir. Eyni zamanda, bu illər çətinliklərlə mübarizə aparmağı və məsuliyyətli olmağı öyrədir. Xüsusilə də ailədən kənar yaşayan gənclərə. Universitet mühiti tələbələrə sərbəst düşünmək və fikir azadlığını qiymətləndirmək imkanı yaradır.Tələbəlik illərində əldə edilən dostluqlar bəzən ömürlük davam edir. Bu dövr xatirələrlə zəngin, duyğusal və fərqli hisslərlə dolu olur. Tələbələr bu illər ərzində həm elmi biliklər, həm də həyat təcrübəsi qazanırlar. Beləliklə, dörd illik tələbəlik həyatı onların yaddaşında silinməz izlər buraxır".



**Tələbə İzzət Əliyev:** "Dördillik tələbəlik həyatım mənim üçün bir məktəb oldu, yalnız elm yox, həyat məktəbi. Universitetə daxil olanda utancaq və qapalı idim, amma indi cəmiyyət içində sərbəst danışa bilirəm. Müxtəlif bölgələrdən olan insanlarla tanış oldum, onların düşüncə tərzini öyrəndim. Tələbəlik mənə öyrətdi ki, hər insanın bir hekayəsi var və dinləməyi bacarmaq da bir mədəniyyətdir. Fakültəmizdə keçirilən seminarlar və tədbirlər mənim dünyagörüşümə ciddi təsir etdi. Artıq hadisələrə təkcə öz baxışımdan yox, fərqli aspektlərdən də baxmağı bacarıram. Dörd il ərzində həm özümü tanıdım, həm də həyatın iç üzünü gördüm. Gələcəkdə diplomdan çox bu qazandıqlarım işimə yarayacaq".





**Tələbə Aytəkin Musayeva:** "Dörd il...Görünüşdə sadəcə bir zaman dilimi kimi gəlir, amma içində nələr var, bir bilsəniz. Bu illər mənim üçün sadəcə dərsə gedib-gəlmək deyildi. Bu illər həm həyat məktəbi, həm özümü tanıma səyahəti oldu.

İlk gün universitetin qapısından addım atanda bir az həyəcanlı, çoxlu arzularla dolu idim. Tanımadığım insanlar, yad auditoriyalar, fərqli mühit...Amma zamanla hər şey mənə doğmalaşdı. Elə bil bu divarların içində başqa bir "mən" doğuldu. Tələbəlik mənə insanları anlamağı öyrətdi. Müxtəlif bölgələrdən gəlmiş, fərqli xasiyyətlərə sahib insanlarla bir qrupda oxumaq, birlikdə gülmək, birlikdə üzülmək... Bu illər mənim dünyagörüşümə rəng qatdı, daha tolerant, daha anlayışlı bir insan etdilər məni. İmtahan gecələri var idi - gözümün içi qızarmış, yorulmuş, amma yenə də nəsə öyrənməyə çalışırdım. Bəzən uduzur, bəzən qalib gəlirdim,lakin hər dəfə bir az daha böyüyürdüm. O gecələrin yorğunluğu indi bir xatirədir, içində çoxlu güc və səbir olan xatirə...İndi geriyə baxanda anlayıram ki, tələbəlik sadəcə bir mərhələ deyildi. Bu mənim həyatımın ən gözəl fəsli idi. Həm çətin,həm gözəl. Həm ağrılı, həm sevincli. Amma hər anı dəyərlidir. Bu illər mənim qəlbimdə heç vaxt silinməyəcək, illər keçsə də təbəssümlə xatırlanacaq izlər qoydu".



**Tələbə Bəylər Muxtarov:** "Dördillik tələbəlik məni sosial etməyə, insanlarla daha çox münasibətdə olmağa kömək etdi. Cəmiyyətdə hansı mövqeyə yönəlməyin daha faydalı olduğunu anlamağa başladım. Əvvəllər çox şeyi yalnız televiziyadan və sosial şəbəkələrdən bilirdim, indi isə hadisələrin arxa planını analiz edə bilirəm. Regionşünaslıq sahəsində öyrəndiklərimiz mənim dünya gö-



rüşümə böyük təsir göstərdi. Xüsusilə, bölgələrarası fərqliliklər və inteqrasiya mövzuları mənə çox maraqlı gəldi. Universitet illərində qazandığım dostluqlar və müəllimlərimizin tövsiyələri mənə yol göstərdi. Çox çətin günlərimiz də oldu, amma bu çətinliklər bizi daha dözümlü etdi. İndi başa düşürəm ki, tələbəlik təkcə oxumaq deyil, həm də yaşamaq sənətidir".

**Tələbə Zeynəb Babayeva:** "Dördillik tələbəlik həyatı, gənclərin dünyagörüşünü genişləndirən və onların şəxsiyyətinə dərin təsir göstərən bir dövrdür. Bu müddət ərzində tələbələr akademik biliklər əldə edir, lakin eyni zamanda sosial əlaqələr qurur və müxtəlif mədəniyyətlər haqqında anlayışlarını genişləndirirlər. Universitet həyatının verdiyi sərbəstlik onlara məsuliyyət hissini inkişaf etdirməyə və müstəqil qərarlar qəbul etməyə imkan yaradır. Müxtəlif mühazirələr, seminarlarda iştirak etməklə tələbələr analitik düşünmə bacarıqlarını artırır və problemlərə kreativ yanaşma öyrənirlər. Sosial tədbirlər və tələbə təşkilatları isə onların ünsiyyət bacarıqlarını gücləndirir və komanda işinə alışdırır. Bu dövrün sonunda tələbələr yalnız diplom almır, həm də həyatda uğurlu olmaq üçün vacib olan şəxsi keyfiyyətlərə sahib olurlar. Tələbəlik illəri onlara həyatın çətinlikləri ilə necə mübarizə aparmağı və yeniliklərə açıq olmağı öyrədir. Dördillik bu təcrübə onların yaddaşında dərin izlər buraxır və gələcək həyat yolunu müəyyənləşdirməyə kömək edir".

**Tələbə Cavidan Bayramov:** "Bu dörd il mənim üçün həm öyrənmək, həm də formalaşmaq dövrü oldu. Düzünü desəm, universitetə gələnə qədər dünyagörüşüm çox məhdud idi. Amma müxtəlif fənlər, xüsusilə beynəlxalq münasibətlər və geopolitik mövzular mənim düşüncəmi genişləndirdi. Müəllimlərin yanaşması və verdiyi bilgilər mənə təkcə dərslərdə yox, həyatda da lazım olacaq bacarıqlar qazandırdı. Həmçinin, tələbə yoldaşlarımla etdiyimiz müzakirələr, debatlar mənim ifadə qabiliyyətimi artırdı. Ən əsası isə bu illər mənim hədəflərimi aydınlaşdırdı, artıq nə istədiyimi daha yaxşı bilirəm. Həyatımda silinməz izlər buraxan bu dövr üçün minnətdaram".



**Tələbə Rəfiqə İsmayılova:** "Dördillik tələbəlik həyatım unuda bilməyəcəyim ən gözəl çağdır. Bu illər ərzində alim və professorlardan mühazirə dinlədim, dünyagörüşüm isə məhdud dairədən kənara çıxıb olduqca genişləndi. Ən başda da insanların necə dəyişkən xarakterli olduğunu, onlardan yaxşı və ya pis hər şeyin gözlənilən olduğunu öyrəndim.Qısacası, insanları tanımaq bacarığı formalaşdı. Bəzən çətinliklər olsa da, onların öhdəsindən gəlib daha dözümlü oldum. Tələbə yoldaşlarımla keçirdi-



yim əyləncəli anlar, imtahan həyəcanı xatirəmin ən gözəl guşəsində yer alır. Bunu da deyim ki, tələbəlik illəri özümü tanımağımın, kəşf etməyimin başlanğıcı olubdur. Bu illər mənim həyatımın günəş çağıdır, o çağ ki heç vaxt işığı xatirəmdə sönməyəcək".

***Günel Fərzəliyeva***

SORĞU

# Ümummilli Liderin ömür yolu Azərbaycan xalqının mübarizəsinin, qürurunun və zəfərinin təcəssümüdür

***Azərbaycan tarixində əbədi iz qoymuş, xalqın qəlbində özünə əbədi yer tutmuş dahi şəxsiyyətlərdən biri, heç şübhəsiz ki, ümummilli lider Heydər Əliyevdir. Onun adı Azərbaycanın müstəqilliyi, dövlətçiliyi və inkişafı ilə ayrılmaz şəkildə sıx bağlıdır. Dərin zəkası, siyasi uzaqgörənliyi və xalqına sonsuz məhəbbəti ilə Heydər Əliyev təkcə bir lider deyil, həm də millətin güvənc, fəxr yeri olmuşdur.***



***Fidan Hüseynova***
***YAP Quba rayon təşkilatının sədri***

1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan diyarında dünyaya göz açan ulu öndər Heydər Əliyev nəsillərə nümunə olan şərəfli ömür yolu keçib, daim xalqımızın rifahı, Azərbaycan naminə çalışıb. Azərbaycanın qədim və zəngin tarixə malik bölgəsi olan Naxçıvan, onun formalaşmasında mühüm rol oynamışdır. Uşaqlıq illərindən elmi biliklərə, tarixə və xalqına dərin maraq göstərən Heydər Əliyev, məktəb illərindən öz liderlik bacarıqları ilə seçilirdi. Ulu öndərimiz Azərbaycanı həyatının mənası hesab edirdi. Bu səbəbdən o, Azərbaycanı müqəddəs yer kimi uca tutur, azərbaycanlı olmağı ilə fəxr edirdi.

O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) təhsil almış, 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləyib, daha sonra SSRİ Dövlət Təhlükəsizlik Komitəsində (DTK) xidmətə başlamışdır. Moskva şəhərində xüsusi ali təhsil alaraq peşəkar təhlükəsizlik və idarəçilik bacarıqlarını mükəmməlləşdirmişdir.

1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev, bu vəzifədə çalışdığı dövrdə Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında inqilabi dəyişikliklərə imza atmışdır. Onun rəhbərliyi ilə ölkədə yeni sənaye müəssisələri, təhsil və mədəniyyət ocaqları yaradılmış, kənd təsərrüfatı sahəsində irəliləyişlər əldə olunmuşdur.

SSRİ miqyasında böyük nüfuza malik olan Heydər Əliyev 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmuşdur. Bu vəzifədə çalışaraq ittifaq miqyasında böyük iqtisadi və sosial layihələrin həyata keçirilməsində fəal iştirak etmişdir. Bu, azərbaycanlı bir siyasətçi üçün çox nadir və böyük nailiyyət idi. Onun Moskvadakı fəaliyyəti dövründə Azərbaycanın maraqları daim diqqət mərkəzində saxlanılırdı.

Ulu öndərin fəaliyyətinə, keçdiyi ömür yoluna nəzər salanda aydın görürük ki, Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında ölkəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, bəlalardan qurtarmağı bacarmışdır.

Hər zaman xalqın yanında olan və xalqın arzu-istəklərinin reallaşdırılması üçün öz canını belə, əsirgəməyən Ulu Öndər 1993-cü il iyunun 9-da Muxtar respublikadan Bakıya qayıtmaqla xalqın ölməkdə olan ümidlərini özünə qaytardı. Milli tariximizin bu unudulmaz günündə xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkə paytaxtına qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən xilas edildi. Ümummilli liderin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. Bu tarixi qayıdış ölkədə ictimai-siyasi sabitliyin bərqərar olmasına, müstəqil dövlət quruculuğuna, sosial-iqtisadi dirçəlişə, dövlətimizin müstəqil siyasət yürüdərək dünya birliyində mövqeyinin gücləndirilməsinə imkan verdi. Milli həmrəylik təmin edildi, dövlətçiliyin əsasları yaradıldı, ölkədə iqtisadi tərəqqiyə geniş yol açıldı. Ulu öndər Azərbaycanda ictimai-siyasi vəziyyətin böhranlı bir dönəmində öz həyatını belə təhlükə altında qoyaraq baş verə biləcək təhlükələrin qarşısını almaq üçün bütün məsuliyyəti öz çiyinlərinə götürdü və bütöv bir xalqın, millətin xilaskarına çevrildi. Heydər Əliyev Azərbaycan xalqının suverenlik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunmuş müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamışdır.

Ulu öndərin Azərbaycan KP MK-ya rəhbərlik etdiyi dövrdə Quba da əsl tərəqqi, inkişaf baş verdi. Ötən əsrin 70-80-ci illərində Quba rayonunda sənayenin, kənd təsərrüfatının, elm, təhsil və mədəniyyətin, ümumilikdə xalq təsərrüfatının bütün sahələrinin dinamik inkişafı təmin edilmiş, yüzlərlə obyekt tikilib istifadəyə verilmişdir. Həmin dövrdə, indinin özündə olduğu kimi minlərlə kənd adamının dolanacaq yeri olan 10 min hektardan çox intensiv bağ salınmışdır.

"Qubaya çox gözəl təbiət bəxş olunubdur. Quba bağlar diyarı adlandırılır. Bəli, burada çox gözəl bağlar var və uca Şahdağ da buraya çox gözəllik verir."-deyən ulu öndər həmişə Qubaya böyük diqqət və qayğı göstərib. 1974-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə keçirilən plenumda Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti "Respublikada meyvəçiliyi intensivləşdirmə və ixtisaslaşdırma əsasında daha da inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etmişdir. Qərarda qeyd edilirdi ki, respublikada meyvəçiliyin vəziyyəti müasir tələblərə uyğun deyildir. Odur ki, 1976-77-ci illərdə Quba rayonundakı Kirov adına, Jdanov adına, "Moskva"sovxozlarında 1200 hektar sahədə torpaqların su təminatını yaxşılaşdırmaq üçün Qudyalçay üzərində əlavə olaraq su nasos stansiyası tikilsin, qəsəbə kanalı yenidən qurulsun və Şıx Əhməd arxının uzadılması təmin edilsin.

Kənd Tikintisi Nazirliyi və Sovxozlar Nazirliyi Quba rayonundakı SSRİ-nin 50 illiyi adına sovxozda 1150 tonluq, "Partiyanın XXII qurultayı" adına sovxozda 700 tonluq meyvə anbarları və buzxanaların tikintisinin başa çatdırılmasını təmin etsin.

1976-80-ci illərdə rayonumuzda 8000 hektar sahədə intensiv tipli yeni meyvə bağlarının salınması və 100-150 min ton meyvə istehsal edilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdu. İllər ötdükcə nəzərdə tutulan bütün layihələr həyata keçirildi. 1976-80-ci illərdə Quba-Xaçmaz bölgəsində16 min hektar intensiv tipli meyvə bağları salındı. Bu bağların məhsuldarlığı 1990-cı illərdə hektardan 500-600 sentnerə çatmışdı. Təkcə rayonumuzda 1983-cü ildə 100 min ton meyvə istehsal olundu ki, bu da o dövr üçün ən yüksək göstərici idi. Kənd təsərrüfatı sahəsində çalışanlara böyük diqqət və qayğı göstərildi. Ötən əsrin 90-cı illərində intensiv tipli meyvə bağlarından alınan yüksək məhsul əhalinin dolanışığının yaxşılaşmasına, bölgələrdə iqtisadiyyatın yüksəlməsinə kömək etdi ki, bu da ulu öndərin uzaqgörən siyasətinin nəticəsi idi.

Sovetlər Birliyinin dağılması nəticəsində torpaqların sahibsiz qalması bir çox yerlərdə intensiv tipli meyvə bağlarının sıradan çıxmasına, zəifləməsinə səbəb oldu. Açıq desək kəndli torpaqdan uzaqlaşmış, başqa sahələrə üz tutmuşdu. Yalnız ulu öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra bu çatışmazlıqlar aradan qaldırıldı. Onun təşəbbüsü ilə keçmiş müttəfiq respublikaları arasında ilk olaraq Azərbaycanda torpaq islahatı aparıldı. Beləliklə, torpağın əsl sahibinə qaytarılması ilə kənd təsərrüfatında dirçəlmə baş verdi, ölkəmizdə məhsul bolluğu yaradıldı. Aqrar islahatlara start veriləndə rayonumuzda 37 sovxoz və digər bu kimi dövlət müəssisələri var idi. Həmin müəssisələrə məxsus olan 13424 hektar meyvə bağı islahat yolu ilə əhalinin mülkiyyətinə verildi.

Respublikada səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində həyata keçirilən böyük layihələr də Heydər Əliyevin müəyyənləşdirdiyi uzun müddətli strateji xətlə bağlıdır. "Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir" fikrini ifadə edən ümummilli lider hələ 1969-82-ci illərdə respublikamıza rəhbərlik edərkən, eləcə də, 1982-87-ci illərdə SSRİ dövlətinin rəhbərlərindən biri kimi səhiyyəmizin inkişafını, yüksəlişini təmin etmək üçün bütün mümkün tədbirləri həyata keçirmişdir.

SSRİ rəhbərliyində çalışdığı illərdə rayonumuzun səhiyyəsində də bir çox işlər görülmüşdü. Məhz Heydər Əliyevin yorulmaz fəaliyyəti və əməyi nəticəsində o dövrlər üçün tayı-bərabəri olmayan çox möhtəşəm Quba doğum evi kompleksi tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən səhiyyə islahatı zamanın tələbinə uyğun yeniləşmə bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Qubada Müalicə Diaqnostika Mərkəzi, Qonaqkənddə xəstəxana binası tikilib əhalinin istifadəsinə verilmiş, Mərkəzi Xəstəxananın maddi-texniki bazası, ən müasir tibbi avadanlıqlar və texnika ilə möhkəmləndirilmişdir. Məhz bu texnikanın sayəsində Müalicə Diaqnostika Mərkəzində ürək cərrahı və böyrək köçürmə əməliyyatları aparılır. Hazırda prezidentin ayırdığı vəsait hesabına mərkəzi xəstəxananın həyətində müasir standartlara cavab verən bina inşa olunaraq istifadəyə verilib.

Ulu öndər mətbuata, söz azadlığına da həmişə böyük qiymət verib. Məhz onun təşəbbüsü ilə Azərbaycanda senzura ləğv olunub. Fəxredici haldır ki, bu dahi insan rayonumuzda çıxan "Şəfəq" qəzetini də yaxından tanıyırdı. Azərbaycanda rayon mətbuatının ağsaqqalı sayılan, "Əxbar"dan başlamış "Şəfəq"ə qədər müxtəlif adlarla nəşr olunan qəzetin 75 illiyi yubileyində onun redaksiyaya təbrik məktubu göndərməsi tək qəzetə deyil, bütün qubalılara olan sevgisinin və qayğısının təzahürü idi. Təbrikdə deyilirdi: "Quba rayonu əhalisinin istək və arzularını, ictimai-iqtisadi və siyasi həyatımızın bütün sahələrini daim öz səhifələrində əks etdirən və əsası 75 il bundan qabaq qoyulmuş "Şəfəq" qəzeti çox zəngin və şərəfli bir inkişaf yolu keçmişdir".

Azərbaycanın dahi, müdrik oğlunun öz xalqı və vətəni üçün gördüyü işlərin həcmi o qədər böyükdür ki, bütün bunlara görə onun adı dünya miqyaslı siyasi liderlərlə yanaşı çəkilir. Heydər Əliyev təhsilin inkişafına da böyük diqqət yetirmişdir. Sovet dövründən müstəqil Azərbaycana yalnız köhnə məktəb binaları miras qalmışdır. Müqayisə üçün qeyd edək ki, Sovet cəmiyyətinin bərqərar olduğu 70 il ərzində rayonumuzda əgər 17 məktəb binası tikilmişdisə, hazırda bunun sayı 80-dən yuxarıdır.

Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə həmişə xalqla birlikdə olub. Onun şəxsiyyət kimi siyasi fəaliyyəti də açıq şəkildə xalqın gözü qarşısında idi. Ulu öndər həmişə deyirdi: "Xalq hər şeyi bilməlidir, xalqın gözü tərəzidir." O eyni zamanda "Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam... Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır" deyirdi. 1998-ci ilin oktyabr ayında Qubaya gəlişi bütün qubalıların sevincinə səbəb oldu. Böyükdən-kiçiyə kimi hamı mərkəzi meydana toplaşmışdı. Heydər Əliyev öz çıxışında Qubanın tarixi, mədəniyyəti ilə bağlı xoş sözlər ifadə etdi. Həmin görüş qubalıların yaddaşında silinməz izlər buraxdı.

Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi illər ərzində xalqımızın tərəqqisi naminə göstərdiyi xidmətləri saymaqla qurtaran deyil. Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Ulu öndər rəhbərlik etdiyi illər ərzində respublikamızda böyük elmi, intellektual kadr, iqtisadi və enerji potensialı yaradılmasına nail olmuş, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə Azərbaycan xalqı qazandığı müstəqilliyə və onun qorunub saxlanması sahəsində əldə etdiyi bütün nailiyyətlərə görə dahi oğluna minnətdardır.

Heydər Əliyevin adı bu gün də xalqımız üçün müdriklik, uzaqgörənlik və dövlətçilik rəmzidir. Onun irsi müasir Azərbaycanın inkişaf strategiyasının əsası kimi qalır. Təhsil, ordu quruculuğu, beynəlxalq əlaqələr və milli dəyərlərin qorunması sahəsində Heydər Əliyevin qoyduğu təməl prinsiplər bu gün də aktuallığını saxlayır. Onun əziz xatirəsi yalnız Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası və beynəlxalq ictimaiyyət üçün böyük önəm kəsb edir. Heydər Əliyev Azərbaycan xalqının yaddaşında təkcə böyük dövlət xadimi kimi deyil, həm də vətənə, xalqa xidmət nümunəsi olan əbədi bir lider kimi yaşayır.

Onun əziz xatirəsi daim uca tutulacaq, ideyaları isə gələcək nəsillərə yol göstərəcəkdir.

# Dünya xalçaçılıq sənətinin etalonu

***Azərbaycan xalq-tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Xalqın milli mədəniyyəti tarixində müstəsna yer qazanan xalçaçılıq sənəti dünyanın bir sıra ölkələrində yayılmış olsa da, bu sənət növünün beşiyi Azərbaycandır. Ölkəmizdə yüz illərdir xalça toxunsa da, xalçaçıların heç vaxt öz peşə bayramlarını qeyd etdiyi gün olmayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli Sərəncamı ilə hər il may ayının 5-i Azərbaycan Respublikasında ”Xalçaçı Günü” peşə bayramı kimi qeyd edilir.***








Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Sasanilər dövründə Azərbaycanda xalça sənəti daha da inkişaf etdi, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxundu. Alban tarixçisi Musa Kalankatlı Azərbaycanda toxunulan ipək parçalar və rəngarəng xalçalar haqqında məlumat verir. Qızıl-gümüş saplarla toxunan və qaş-daşla bəzədilən xalça istehsalı XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Burada toxunan və istehsal edilən xalçalar dünyada müqayisə edilməyən nümunə kimi qəbul olunur. Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. ”Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa edilməsi bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir. 2014-cü ildən fəaliyyətə başlayan Xalça Muzeyi Azərbaycan xalçasının dünya miqyasında yetərincə təbliğinə və tanınmasına töhfəsini verir.

## ”BU GÜN AZƏRBAYCAN XALÇASI DÜNYADA MƏHZ AZƏRBAYCAN XALÇASI KİMİ TANINIR”

Bu gün paytaxtımızda fəaliyyət göstərən orijinal üslubda inşa olunan bükülmüş xalçanı xatırladan Xalça Muzeyinin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını əks etdirir. Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev Azərbaycan xalçasını dünyada xalçaçılıq sənətinin etalonu kimi dəyərləndirir: ”Mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni, bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır”.

Bu gün Azərbaycan qadın ustalarının əlləri ilə yaradılan gözəl xalçalar və xalça məmulatları Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini, habelə, Bakıda Azərbaycan xalçaları muzeyini və Azərbaycan tarixi muzeylərini bəzəyir. Xalça Azərbaycanın çox fərqli milli sərvətidir.

Azərbaycana qonaq gələn şəxsə təqdim olunan gözəl əşya xalçadır. Azərbaycandan qonaq gedərkən xarici dövlətlərə aparılıb ən dəyərli hədiyyə olaraq təqdim olunan da yenə də xalçadır. Bu cür istehsalımız olan və bütövlükdə dünyamızı özündə əks etdirən xalçamız Azərbaycanın məxsusi dəyərlərini, tarixini özündə cəmləşdirir.

Xalçaçılıq sənəti xalqın milli mədəniyyəti tarixində müstəsna olaraq yer qazanmışdır. Tarixi qədim bir dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, habelə yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyət kəsb edir. Xalçaçılığın istehsalı, tərtibi zahirən bir qədər asan görünsə də, onu yaradanların gərgin əməyinin çətinliyi dərk olunmalıdır.

1949-cu ildə aparılan arxeoloji axtarışlar zamanı xalçanın yaşının 2500 il tarixi olduğu qeyd olunur. Məlumdur ki, Azərbaycan xalçaçılıq sənəti qrup və tiplərə bölünür: Təbriz, Qazax, Gəncə və s. Hər bir ərazinin öz milli xüsusiyyətləri əsasında xalça üzərində ornamentlər gözəl bir təsvir yaradır. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq xalçaçılıq məktəbinə bölünür. Burada hər bir ərazinin təbiətinə uyğun olaraq rənglərdən istifadə olunur. Azərbaycanın şimal-şərqində yerləşən Quba xalça mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Bakı məktəbi, Abşeronun kəndlərinin xalçalarına gəlincə isə burada hazırlanan xalçalar daha yumşaqlığı, rənglərinin intensivliyi, bədii elementlərinin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Xalçaların bəzəklərində həndəsi formalı göllər, əyri xətli nəbati elementlər üstünlük təşkil edir. Bakı qrupuna aid xalçaların rəng koloritində əsasən tünd göy, nadir hallarda isə qırmızı və sarı rənglərdən istifadə edilir. Bu xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur.



## BƏDİİ DƏYƏRİNƏ VƏ TƏSVİRİNİN ORİJİNALLIĞINA GÖRƏ

## BƏNZƏRSİZ QARABAĞ XALÇALARI

Azərbaycan xalçaçılıq məktəblərindən söz açarkən Qarabağ xalçaçılıq məktəbini də xüsusi olaraq qeyd etməliyik. Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx hündür və yumşaq xova malikdir. Qarabağ xalçaları həyat eşqi və parlaq koloriti ilə seçilir. Onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunub. Yazılı mənbələrdə ərəb tarixçiləri Əl-Müqəddəsi, Məsudi və b. tərəfindən göstərilir ki, X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan iri sənətkarlıq mərkəzi kimi adı çəkilən Qarabağın Dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Çanaxçı, Tuğ, Köhnə Tuğlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdılar. ”Aran xalçası”, ”Bağçadagüllər xalçası”, ”Balıq xalçası”, ”Buynuz xalçası”, ”Bərdə xalçası”, ”Bəhmənli xalçası”, ”Qarabağ xalçası”, ”Qoca xalçası”, ”Qasımuşağı xalçası”, ”Ləmbəran xalçası”, ”Muğan xalçası”, ”Talış xalçası”, ”Lampa xalçası”, ”Malıbəyli xalçası”, ”Xanqərvənd xalçası”, ”Xanlıq xalçası”, ”Xantirmə xalçası”, ”Çələbi xalçası”, ”Şabalıdbuta xalçası”, və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi Şuşada cəmlənmişdir. XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyaları üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları - ”Bağçadagüllər xalçası”, ”Saxsıdagüllər xalçası”, ”Bulud xalçası” və s. çeşnilər toxunurdu. Qarabağ xalçalarının rəng - boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Qədim dövrlərdən Azərbaycan xalçalarının ara sahə yerliyi ənənəvi olaraq qırmızı rəngdə işlənmişdir. Qarabağ xalçalarının motivləri öz bədii dəyərinə və təsvirinin orijinallığına görə bənzərsizdir.

Mənbələrdə göstərilir ki, xalq dastanının qəhrəmanı, Şərqin böyük şairi Firdovsinin ”Şahnamə” poemasında baş qəhrəman Rüstəmə həsr edilmiş Qarabağ xalçaları xüsusilə diqqəti çəkəndir. Rüstəm və Söhrab xalçalar seriyası miniatür rəngkarlığı üçün ənənəvi kompozisiya prinsiplərinin xalq ruhunda təsviri ilə diqqətəlayiqdir. Bunlar öz ideya, bədii xüsusiyyətlərinə görə xalq xalçaçılıq sənətinin sözün əsl mənasında tayı-bərabəri olmayan inciləridir.

## XALÇA SƏNƏTİNDƏ YAŞANAN RƏMZLƏR DÜNYASI

Xalçaçılıq sənətindən söz açarkən Şuşa xalçaçılıq sənətini də xüsusi olaraq qeyd etməliyik. Şuşa xalçaları xovunun hündür olması, əlvan, şux koloritli, çox nazik, incə xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Şuşa xalçalarını səciyyələndirən cəhət təbii boyaq maddələrin xalçalara verdiyi parlaqlıq, şux rəng palitrasıdır. Azərbaycanda olan 1500 növ boyaq bitkisinin əksəriyyəti Qarabağda olmuş, burada toxunan xalçaların ipliklərinin boyanmasında onlardan istifadə olunmuşdur. Şuşada 35-dən artıq orijinal xalça çeşnilərindən istifadə olunmaqla xalçalar toxunmuşdur. Xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunmuşdur. Şuşa həm də ipək xalçaları ilə şöhrət qazanmışdır. İpək xalçalar, əsasən, mötəbər şəxslər, zadəganlar üçün sifarişlə və ya ixrac məqsədilə toxunurdu. Mənbələrdə göstərilir ki, XVIII əsrin ikinci yarısından etibarən, Qarabağın xalça istehsalı əsasən Şuşa şəhərində mərkəzləşir. Toxunduğu xalça və palazların sayı və keyfiyyətinə görə Şuşa XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi, rəngarəngliyi ilə seçilən ”Ləmpə”, ”Qoca”, ”Bulud” xalçaları və ”Dəst xalı-gəbə” kimi xalça dəstləri burada toxunub. Qarabağın əksər məntəqələrində, o cümlədən Şuşa şəhərində toxunan xalçalar xaricə Rusiya, Avropa, Asiya ölkələrinə ixrac olunmuşdur. Statistik məlumatlara görə, 1885-1887-ci illərdə Şuşanın xalça istehsalından gəliri 30 min rubl olmuşsa, 1890-cı illərdə bu gəlir artıq 200 min rubla çatmışdır.

Qarabağ xalçaçılıq məktəbinə məxsus ”Əjdaha xalçası” Viktoriya və Albert muzeyində saxlanılır. Xalça ”Balıq” bu xalça Qarabağ tipinin ən geniş yayılan xalçalarından biridir. Ölkəmizin şimalında ”Balıq”, İran Azərbaycanında isə ”Moxi” adı ilə tanınır. ”Balıq” xalçası Qarabağın bütün xalçatoxuma məntəqələrində istehsal olunmasına baxmayaraq, onun əsas istehsal mərkəzi Bərdə şəhəri hesab olunurdu. XVIII əsrin ikinci yarısında isə ”Balıq” xalçası Şuşa şəhərində də istehsal olunurdu.

”Qarabağ” adı ilə tanınan xalçalar Azərbaycanın bütün xalçatoxuyan məntəqələrində istehsal olunub. Azərbaycan xalçaçılıq məktəblərindən olan Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu Qasımuşağı xalçasıdır. ”Qasımuşağı xalçası”nın adı Laçın rayonunun şimalında yerləşən Şamkənd, Ərikli, Kürdhacı, Çorman və Şəlvə kəndinin əhalisinin adı ilə bağlıdır. Qasım Hacı Sam oğlu qeyd-şərtsiz bir vaxtlar burada yaşayan hörmətli şəxs olub. Bu kəndlərdə yaxın keçmişə qədər yüksək növ xalçalar istehsal olunurdu. Bəhmənli xalçası isə Füzuli rayonunda yerləşən Böyük Bəhmənli kəndinin adı ilə bağlıdır. ”Bəhmənli” xalçasının orta kompozisiyası bir-birinin ardınca düzülmüş, orijinal formalı fiqurlar təşkil edir.

Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri bir sənət və dəyər əfsanəsinə çevrilib. Gəmiqayadan, Qobustandan, Kür-Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində rəmzlər dünyası yaşayır. Bu sənətin dünya mədəni irsində - YUNESKOnun şah əsərləri sırasına daxil edilməsi Azərbaycan xalçasının bir uğuru, nailiyyəti kimi əks-səda doğurmuş oldu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ulu öndər Heydər Əliyev - tarixin axarını dəyişən lider

2025-ci ilin may ayı Azərbaycan üçün sadəcə təqvimdə bir tarix deyil. Bu ay, millətin taleyində mühüm rol oynamış, xalqın sevgisini və inamını qazanan, müasir Azərbaycan dövlətçiliyinin qurucusu, ümummilli lider Heydər Əliyevin 102 illiyi ilə yadda qalır. Onun adı artıq çoxdan canlı tarixə çevrilib. Bu ad Azərbaycan xalqının azadlıq ideallarının, suveren dövlət arzularının, sabitlik və inkişaf yolunun rəmzinə dönüb. Tarixi şəxsiyyətin siyasi irsinin başlanğıcı xalqı üçün olduqca uğurlu olub. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı üçün əvəzsiz xidmətləri 1969-cu ildən - onun Azərbaycan Kommunist Partiyasının birinci katibi seçildiyi dövrdən başlayır. Sovet idarəçiliyi şəraitində belə milli maraqları qorumaq, respublikanın iqtisadi və mədəni inkişafına zəmin yaratmaq kimi cəsarətli və uzaqgörən addımlar yalnız böyük liderin iradəsinə xas xüsusiyyətlər idi. Təhsil, sənaye, səhiyyə, elm və mədəniyyət sahələrində aparılan sistemli islahatlar nəticəsində Azərbaycan ittifaq miqyasında öncül respublikalardan birinə çevrildi. Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi həyatında həlledici rola malik bir şəxsiyyət kimi meydana çıxdı. Onun 1969-cu ildə Azərbaycanda siyasi rəhbərliyə gəlişi ilə respublikada tamamilə yeni bir inkişaf mərhələsi başlandı. Hələ Sovet dövründə belə, o, Azərbaycanı SSRİ məkanında aparıcı respublikalardan birinə çevirməyi bacardı. Onun rəhbərliyi altında sənaye, kənd təsərrüfatı, təhsil və mədəniyyət sahələrində fundamental dəyişikliklər həyata keçirildi. Moskvada - SSRİ rəhbərliyində, Siyasi Büronun üzvü kimi, Heydər Əliyev təkcə Azərbaycanda deyil,





*David İbramxəlilov*
*YAP Qusar rayon təşkilatının sədri*

bütün sovet məkanında nüfuzlu və söz sahibi olan liderə çevrildi. O, millətin ruhunu, milli dəyərləri yüksək tutaraq azərbaycançılığı ideoloji səviyyəyə yüksəltdi. Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanan kadr siyasəti, milli ruhun yüksəldilməsi və milli intellektin inkişafına göstərilən qayğı nəticəsində Azərbaycan cəmiyyəti yeni keyfiyyət mərhələsinə qədəm qoydu.

Təsadüfi deyil ki, Ulu öndərin hələ o illərdə söylədiyi "Azərbaycanın gələcəyi onun bugünkü gəncliyindən asılıdır" fikri bu gün strateji dəyər daşıyır. Ulu öndər Heydər Əliyevin əsl xilaskar missiyası Azərbaycanın müstəqilliyini yenicə qazandığı, lakin xaos və vətəndaş qarşıdurması girdabına düşdüyü 1990-cı illərin əvvəllərində özünü tam göstərdi. 1993-cü ilin iyun ayında xalqın israrlı tələbi ilə Bakıya qayıdan Heydər Əliyev sözün əsl mənasında dövlətçiliyi xilas etdi. Bu dövrü tarix haqlı olaraq "Azərbaycanın xilası" dövrü adlandırır. Ulu öndərin qətiyyətli siyasi iradəsi, müdrikliyi və diplomatik məharəti sayəsində ölkədə sabitlik bərpa olundu, separatizm və anarxiya cəhdləri darmadağın edildi. Onun "Mənim həyatım da, fəaliyyətim də yalnız Azərbaycana xidmət etməkdən ibarət olub" fikri bir ideya deyil, bütöv bir dövrün, hətta taleyin ifadəsidir. Dahi lider Heydər Əliyev təkcə sabitlik yaratmaqla kifayətlənmədi. O, Azərbaycanı gələcəyə aparacaq strateji xəritəni də cızdı. 1994-cü ildə imzalanan və "Əsrin müqaviləsi" adlandırılan neft sazişi Azərbaycanın iqtisadi müstəqilliyini təmin etməklə yanaşı, ölkəmizin beynəlxalq nüfuzunun artmasında həlledici rol oynadı. Ulu öndər deyirdi: "Azərbaycanın təbii sərvətləri xalqımıza məxsusdur və bu sərvətlər xalqın rifahı üçün işləməlidir." Eyni zamanda Heydər Əliyev hüquqi dövlət quruculuğu sahəsində də tarixi addımlar atdı.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası bu gün də müasir dövlətçiliyimizin hüquqi əsasını təşkil edir. Ümummilli lider Müstəqillik dövrünün xilaskarı kimi də böyük tarix yazdı. Sovet İttifaqının dağılması ilə Azərbaycanın müstəqil dövlət kimi qarşılaşdığı çətinliklər, daxili siyasi qarşıdurmalar, separatizmin güclənməsi, iqtisadi və sosial böhran ölkənin gələcəyini təhlükə altına almışdı. Belə bir şəraitdə xalqın yeganə ümidi təcrübəli və uzaqgörən lider - Heydər Əliyev idi. Onun rəhbərliyi ilə ölkədə hüquqi və institusional islahatlara start verildi, iqtisadi sistemin bazar mexanizmlərinə uyğunlaşdırılması istiqamətində mühüm qərarlar qəbul olundu. Yeni Azərbaycan Partiyası isə Heydər Əliyev irsinin siyasi dayağı və xalqın çox böyük ümid bəslədiyi siyasi qüvvə idi. 1992-ci ildə ölkədə anarxiyanın, xaosun və siyasi böhranların hökm sürdüyü bir zamanda xalqın içindən doğan çağırışa cavab olaraq Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası (YAP) yaradıldı. Bu, sadəcə bir siyasi təşkilatın təsis olunması deyildi - bu, xalqın nicat axtarışının, Heydər Əliyev şəxsiyyətinə olan inamın və dövlətçilik ideallarının siyasi təcəssümü idi. YAP-ın yaranması Azərbaycan siyasətində dönüş nöqtəsinə çevrildi. "Yeni, müstəqil Azərbaycan uğrunda!" şüarı altında birləşən bu hərəkat sonradan ümumxalq dəstəyini qazanaraq ölkənin aparıcı siyasi gücünə çevrildi. Partiyanın banisi və ideoloji rəhbəri kimi Heydər Əliyev siyasi sistemdə davamlılığı, idarəetmədə peşəkarlığı və milli maraqlara əsaslanan dövlətçilik fəlsəfəsini təmin etdi. O, Yeni Azərbaycan Partiyasını sadəcə bir iqtidar partiyası kimi deyil, milli maraqların müdafiəçisi, dövlətin sabit inkişafının təminatçısı, cəmiyyətlə dövlət arasında körpü rolunu oynayan siyasi platforma kimi formalaşdırdı.

Bu gün YAP həm siyasi ideya, həm də təşkilati güc baxımından Ulu öndər Heydər Əliyev məktəbinin bariz davamçısıdır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi neft strategiyası Azərbaycanın müstəqilliyini yalnız siyasi yox, həm də iqtisadi baxımdan möhkəmləndirdi. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" təkcə neft yataqlarının işlənməsi ilə bağlı kommersiya razılaşması deyildi - bu, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının rəmzi idi. Ulu öndər bu müqavilənin əhəmiyyətini belə ifadə edirdi: "Azərbaycanın neft sərvətləri xalqın rifahı üçün işləməlidir. Biz bu sərvətlərlə azadlığımızı möhkəmləndirməliyik." Məhz bu baxışla həyata keçirilən enerji siyasəti Azərbaycanın geosiyasi çəkisini artırmaqla yanaşı, milli gəlirlərin əsas mənbəyinə çevrildi. Ulu öndərin diplomatik uğurları daha da artırdı. Bu böyük şəxsiyyət xarici siyasətin memarı kimi dünya miqyasında qəbul edildi. Ümummilli lider Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə bərabərhüquqlu tərəfdaş kimi tanınması üçün gərgin diplomatik fəaliyyət göstərdi. Onun "neçə qütblü dünya varsa, biz orada olmalıyıq" prinsipi bu gün də Azərbaycan diplomatiyasının əsas dayaqlarındandır. O, balanslaşdırılmış, qeyri-ideoloji və milli maraqlara söykənən xarici siyasət xəttinin təməlini qoydu. Avropa, ABŞ, Rusiya, Türkiyə, Çin və İran kimi əsas güclərlə paralel münasibətlər qurmaqla Ulu öndər Heydər Əliyev Azərbaycanın neytrallıq mövqeyini qorumağı bacardı və ölkəni regional sabitliyin dayağına çevirdi. Heydər Əliyev siyasətində milli-mənəvi dəyərlər hər zaman ön planda olub. Onun təşəbbüsü ilə Novruz bayramı, muğam sənəti, klassik ədəbiyyat və milli adət-ənənələr dövlət səviyyəsində bərpa edildi və qorunub saxlanıldı. O bildirirdi: "Xalqın ruhunu yaşadan onun mədəniyyətidir. Mədəniyyətsiz xalq yoxdur".

Bu baxış bu gün Azərbaycanın dövlət siyasətində də davam edir - mədəni irsin qorunması və dünyaya tanıdılması məhz Heydər Əliyevin ideoloji irsindən qaynaqlanır. Bugünkü güclü, sabit və inkişaf edən Azərbaycanın təməlində Heydər Əliyevin ideya və əməlləri dayanır. Onun rəhbərliyi ilə atılan hər addım bu gün də öz bəhrəsini verir. Azərbaycançılıq ideologiyasının banisi olan bu dahi şəxsiyyətin siyasi kursu bu gün cənab Prezident İlham Əliyev tərəfindən qətiyyətlə, uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin 102 illik yubileyi təkcə xatirə mərasimi deyil - bu, bir ideologiyanın, siyasi fəlsəfənin, milli birliyin təntənəsidir. Onun irsi hər bir azərbaycanlının düşüncəsində və hər bir dövlət qurumunun fəaliyyətində yaşayır. Ulu öndər deyirdi: "Mən həyatımı yalnız və yalnız Azərbaycan xalqına həsr etmişəm." Bu sadiqlik, bu fədakarlıq onu tarixdə ölməz, millətin qəlbində əbədi etdi.




# Polisə “daş atmaq” kimlərin marağındadır?




***Azərbaycanın iqtisadi, siyasi, diplomatik, hərbi qələbələr, uğurlar əldə etməsi yerli və xarici maraqlı dairələri ciddi narahat edir. Həmin məkrli qüvvələr müxtəlif çirkin vasitə və üsullarla ölkəmizin uğurlarına kölgə salmağa, ictimai-siyasi sabitliyi pozmağa, azad, demokratik prosesləri əngəlləməyə cəhdlər göstərirlər. Xüsusilə də pozucu qüvvələrin əsas hədəfi Azərbaycan polisidir. Çünki polis cəmiyyətdə asayişin və təhlükəsizliyin təminatçısı, sabitliyin bir növ qarantıdır.***

Dağıdıcı müxalifətin trolları, eləcə də xaricdəki antimilli ünsürlər sosial şəbəkələrin nəzarətsiz zona olmasından istifadə edərək, müntəzəm olaraq polis haqqında öz tərbiyələrinə və əxlaqlarına uyğun statuslar yazır, videolar paylaşırlar. Çalışırlar ki, Azərbaycan polisini cəmiyyətin gözündən salsınlar. Xüsusilə də, xaricdə oturub Azərbaycan dövlətçiliyi və milli maraqları əleyhinə qarayaxma kampaniyası aparan antimilli ünsürlər polis barəsində dezinformasiyalar yaymağa, şər və böhtanları səsləndirməyi adət halına çeviriblər. Bəzən elə yalanlar yazır, videolar paylaşırlar ki, onların azərbaycanlı olmasına şübhələr yaranır. Düşünülür ki, bunlar elə Ermənistandakı revanşistlərdir və ya koçaryanların, sarkisyanların, ohanyanların qohum - əqrəbasıdır. Eyni gündə polislə bağlı müxtəlif saytlarda, sosial şəbəkələrdə və ya internet TV-lərdə bir- birinin təkrarı olan yalan fikirlərin səslənməsi, eyni məzmunlu repotajların yayımlanması mövzunun eyni mərkəzdən təşkil edildiyini göstərir.




### Polis torbalı məxluqların hay-küylərinin arxasında hansı məkrli niyyətlərin dayandığını yaxşı anlayır

Söz yox ki, dünyanın istənilən demokratik ölkələrində olduğu kimi, Azərbaycanda da qanunun tələblərini pozanlara qarşı qanunamüvafiq tədbirlər görülür. Bu zaman hay-küy salmaq, şər və böhtanlarla çıxış etmək törədilən cinayət əməlinin ört-basdır edilməsinə cəhd etməkdir. Lakin Azərbaycan polisi çətin, ancaq şərəfli yol keçib və bu yolda kifayət qədər təcrübə qazanıb. Yəni ayıq-sayqılığı, təmkinli olması ilə seçilən və tanınan polis torbalı məxluqların hay-küylərinin arxasında hansı məkrli niyyətlərin dayandığını yaxşı anlayır. Ona görə də, böhtançıların paylaşımlarına, statuslarına əhəmiyyətsiz yanaşmaqla öz müqəddəsi vəzifələrinin icrasını davam etdirirlər.

Fakt ondan ibarətdir ki, Azərbaycan polisi vətəndaşla öz doğması kimi davranır, problemlərlə qarşılaşanlara, çətinliklə üzləşənlərə hər cür yardımı, dəstəyi göstərir. Dövlət Yol Polisi əməkdaşları yolda qalan, problemlə üzləşən istənilən sürücüyə yardım göstərir. Dəfələrlə DYP əməkdaşları xəstəxanaya getməli olan, lakin tıxac səbəbindən çətinliklə üzləşən avtomobil sahiblərinin önündə gedərək onların rahat və təhlükəsiz şəraitdə xəstəxanaya çatmalarına yardımçı olub.

### Pandemiya dövründə polisin göstərdiyi misilsiz fədakarlıq heç zaman unudulmayacaq

Pandemiya dövründə polisin göstərdiyi misilsiz fədakarlıq qədirbilən xalqımız yaddaşından heç zaman silinməyəcək. Çünki polislərimiz xəstələrin xəstəxanalara çatdırılmasında, dünyasını dəyişən insanların dəfnlərinin təşkilində, Bakıdan rayonlara və ya bölgələrdən paytaxta insanların gediş-gəlişninin təşkilində zərgər dəqiqlik nümayiş etdirmişlər. Məhz polislərin sayəsində Azərbaycanda yoluxma nəinki, MDB ölkələrindən, ümumilikdə Avropa miqyasında aşağı göstəricidə olmuşdur. Bu da Azərbaycan polisinin əhalinin sağlamlığının təmin edilməsində layiqincə dayanmasının bariz nümunəsidir.

Polisimizin yanğınlar zamanı, eləcə də baş verən təbii fəlakətlər dövründə insanlara xidmətlər göstərib, faciənin miqyasının genişlənməsinin qarşısını alması ilə bağlı yüzlərlə fakt göstərmək, videolar nümayiş etdirmək olar. Ona görə də, xaricdəki antimilli ünsürlərin, həmçinin dağıdıcı müxalif siyasi partiya rəhbərlərinin trollarının yaratdıqları şəbəkənin Azərbaycan polisinə ləkə atmaq istəklərinə nail ola bilməyəcəklər.

Ölkə Prezidenti, Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyev 100 illik yubiley münasibətilə daxili işlər orqanlarına göndərdiyi təbrikdə qeyd olunur ki, bu gün Azərbaycan polisi inkişaf və yeniləşmə mərhələsini yaşayır: ”Müasir dövrün çağırışlarına cavab olaraq aparılan islahatlar nəticəsində onun üzərinə qoyulan vəzifələrin dairəsi genişlənir. Cinayətlərin qarşısının alınması ilə yanaşı, insan hüquq və azadlıqlarının qorunması daxili işlər orqanlarının prioritetlərindən birinə çevrilir. Polis orqanlarının fəaliyyətini təkmilləşdirmək, iş keyfiyyətini, peşə hazırlığını və bilik səviyyəsini artırmaq məqsədilə yeni axtarış və informasiya texnologiyaları ilə təmini, maddi-texniki bazanın ən müasir tələblər səviyyəsinə çatdırılması və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görülür. Polisin inkişafına dövlət qaygısı bundan sonra da davam edəcəkdir”.




### Ulu Öndər Heydər Əliyev: ”Polis, Daxili İşlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir”

Bu gün Azərbaycan beynəlxalq aləmdə sabit, sakit, azad, demokratik dövlət olaraq tanınır və qəbul edilir. Təbii ki, bu uğurlar, möhtəşəm qələbələr çox çətin prosesləri keçməklə nail olunub. Hansı ki, dövlət müstəqilliyimizin ilk illərində müxtəlif cinayətkar dəstələr dövlətçiliyimizə real təhlükələr yaradırdılar. Belə çətin, ağır dövrdə ölkəmizdə xalqın çağırışı ilə hakimiyyətə gələn Ulu Öndərimiz Heydər Əliyev cinayətkarlığın aradan qaldırılması və sabitliyin təmin olunması üçün təxirəsalınmaz işlər gördü, fərman və sərəncamlar imzaladı. Görülən prinsipial işlər, qətiyyətli addımlar sayəsində qısa müddətdə ölkəmizdə sabitlik təmin edildi. Bu vəzifənin həyata keçirilməsində polis xüsusi fəallığı ilə seçildi. Təəssüf ki, Azərbaycan polisi cinayətkarlığın ləğv edilməsində, asayişin təmin olunmasında qurbanlar verməli oldu. Neçə-neçə Azərbaycanın igid, qəhrəman polisi cinayətkarlarla mübarizə də canlarını qurban verdi. O dövrdə Azərbaycan polisi həm də erməni terrorçu hərbi birləşmələrinə qarşı da müharibədə iştirak edirdi. Daxildə qanunsuz silahlı dəstələrə, sərhəddə isə erməni terrorçularına qarşı mübarizə aparmaq polis üçün çətin olsa da, onlar heç zaman hədəflərindən yayınmadılar, qarşılarına qoyulan vəzifələri yerinə yetirməkdən çəkindirmədilər. Həm də dövlətə sədaqət andı içmişdilər, xalqın mənafeyini qorumaq, Ulu Öndərimiz Heydər Əliyevin əmr və göstərişlərini ləyaqətlə yetirməyə söz vermişdilər. Ona görə də daxildə qanunsuz silahlı dəstələrin ləğv edilməsi, cəbhədə isə torpaqlarımızı işğal etməyə çalışan erməni hərbi birləşmələrinin məhv edilməsi üçün canlarından belə keçməkdən çəkinmədilər. Həmin dövrdə yüzlərlə Azərbaycan polisi şəhid oldu, yaralandı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev o çətin, ağır dövrdə polisin fədakarlığını, mübarizliyini yüksək qiymətləndirərək, demişdir: ”Azərbaycan polisi şanlı bir tarix keçibdir. Xüsusən, 1988-ci il hadisələri başlanandan sonra, Qarabağ müharibəsində Azərbaycan polisinin 932 nəfər əməkdaşı şəhid, 681 nəfəri isə əlil olubdur. Eyni zamanda, 67 nəfər polis əməkdaşı Milli Qəhrəman adına layiq görülübdür. Bu, böyük rəşadət, qəhrəmanlıq və dövlətçiliyə sədaqət nümunəsidir”.

Dahi Öndərimiz Heydər Əliyev 2002-ci il iyulun 3-də Azərbaycan polisinin yaranmasının 84-cü ildönümü münasibətilə keçirilən ”Azərbaycan Polisi Günü”nə həsr olunmuş təntənəli mərasimdə çıxışı zamanı demişdir: ”Bu bayram sizin peşə bayramınızdır. Amma, eyni zamanda, bu, bizim Azərbaycan xalqının bayramıdır, vətəndaşlarımızın bayramıdır - hamımızın bayramıdır. Çünki polis, Daxili İşlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir. Ona görə bu, bizim hamımızın bayramıdır. Bu səbəbdən də mən bayram günü sizinlə bir yerdə olmaq üçün buraya, ”Respublika” sarayının bu möhtəşəm salonuna gəlmişəm”.

Ulu Öndər Heydər Əliyev çıxışında onu da bildirmişdir ki, son illər Daxili İşlər Nazirliyində, polis orqanlarında böyük islahatlar həyata keçirilir: ”Bu islahatlar Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun bir hissəsidir. Biz müstəqilliyimizi əldə edən kimi bəyan etmişik ki, yolumuz müstəqil, demokratik dövlət qurmaqdır, hüquqi dövlət qurmaqdır, dünyəvi dövlət qurmaqdır. Biz bu yol ilə gedirik. Bu, bizim Konstitusiyamızda təsbit olunubdur. Son illər qəbul etdiyimiz yüzlərlə, bəlkə də minlərlə qanunlarda, fərmanlarda təsbit olunubdur. Bu yol ilə gedirik. Bu halda gərək, Azərbaycanın dövlət strukturlarının hamısı demokratik, hüquqi dövlət prinsiplərinə uyğun olsunlar. Biz bunlara görə də bütün sahələrdə islahatları keçiririk. Siz bunları bilirsiniz”.

Bir sözlə, Azərbaycan polisi fəaliyyətinə, davranışına, qanunçuluğun təmin olunmasına, cinayətkarlığa qarşı mübarizə sahəsində göstərdiyi ləyaqətli xidmətinə görə özünə cəmiyyətdə hörmət, rəğbət qazanıb. Bunun fonunda dağıdıcı müxalifətin, eləcə də demoqogiyadan başqa bir işə yaramayan ünsürlərin, həmçinin xaricdəki antimilli məxluqların Azərbaycan polisini gözdən salmaq kampaniyası aparması, sadəcə, boş qazanı danqıltmaqdan başqa bir şeyə yaramazlar.

***İLHAM ƏLİYEV***

# Qadının geyimi, yoxsa üzündəki ifadə önəmlidir?




Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyevin SİA-ya müsahibəsini təqdim edirik:



*- Geyim əxlaq ölçüsü sayıla bilər?*

- Bu mövzu bizim əxlaqi dəyərlərimizə, milli-mənəvi, mental dəyərlərimizə ciddi zərbə vuran məsələlərdir. Son dönəmlər, əsas da son 30 ildə böyük şirkətlər məhsulların satışı üçün müxtəlif marketinq üsullarına əl atırlar. Bu məqsəd birbaşa məhsulun satışının artımına xidmət edir. Burada təəssüfləndirici məqam ondan ibarətdir ki, bəzi kriteriyalar gözlənilməlidir. Ələlxüsus da müsəlman ölkələrində, türk dövlətlərində, Qafqaz dövlətlərində riayət edilməlidir. Onlara riayət edilmir. Riayət olunmayan, reklam kriteriyalarını aşan səbəblərdən biri də gənc qadınların bu satışı artırmaq üçün reklam vasitəsinə çevrilib istismar edilməsidir. Mən bunu zərif adlandırdığımız bir qadının istismarı adlandırardım. Cəmiyyətdə əks fikir söyləyənlər var ki, bir qadın əgər yarıçılpaq şəkildə musiqi səsləndirirsə, maşın satışı ilə məşğul olan şəxs yarıçılpaq şəkildə qadınla nümayiş etdirirsə, buna əxlaqsızlıq demək olmaz. Bəs əxlaq nədir? Birinci bilmək lazımdır ki, əxlaqın özü nə deməkdir? Əxlaq müəyyən meyara söykənən insanların bir-birinə, hətta təbiətə, heyvanlara qarşı olan davranışlar toplusudur.

Qadınların da reklam vasitəsi kimi istifadə olunması özü cəmiyyətə qarşı əxlaqsız davranışdır. Bir ana bir geyim dükanına gedirsə, özünə geyim seçirsə, övladı yanında ola bilər. Peşə əxlaqın, ya da əxlaqsızlığın təbliğidir. Sosial şəbəkələrdə bu çıxış yüz minlərlə izləyici topladı. Sevindim ki, cəmiyyətin 90%-nin üstü buna dəstək verdi. Qadın işləyə bilər, təhsil də almalıdır. Mən bunu iki qız övladı olan azərbaycanlı ata kimi deyirəm. Qız təhsil almalıdır. Qadın işləməlidir. Sosial vəziyyət elədir ki, hər iki ailədə həm ata, həm ana bir-birinə dəstək olmalıdır. Amma qadın hər yerdə işləyə bilməz. Mən azərbaycanlı xanımları ofisiant qismində görmək istəmirəm. Qadınların tarqovuda, disko barlarda ərəblərin qabağına araq, pivə aparan ofisiant qismində işləməsini istəmirəm. Səbəb nə olursa olsun. Çünki o qadınlar gələcəkdə Azərbaycanımız üçün sağlam kişi vətəndaşlar yetişdirməklə mükəlləfdirlər. Barda ofisiant işləyən bir qadın gələcəkdə Azərbaycana hansı ruhda olan əsgər yetişdirə bilər? Təbii ki, əxlaqi yerində olmayan, o tipli qadınlara normal baxan ata formalaşacaq. O da öz övladlarını o formada tərbiyə edəcək. Əgər bir qadın bədən əzaları ilə pul qazanmağa başlayırsa, qadın məcburdur ki, bədənini formada saxlasın. Bizim cəmiyyətdə qadınların çoxu inqibatordan çıxmış cücə kimi bir-birinə bənzəyirlər. Bu, yolverilməzdir. Bu, "Azərbaycan ana prototipi"ni itirməkdir. Bununla mübarizə aparmaq lazımdır. Avropadan gələn liberalizmin, Qərbin, Amerikanın demokratik quruluşunun, dağılmış ailə modelinin Şərqə, müsəlman ölkələrinə gəlməsini qəbul etməməliyik. Onu götürsək, bizim də qısa müddətdə dəyərlərimiz aradan çıxacaq.

*- İdeal qadın necə olmalıdır?*

- Biz ideal qadın obrazını 40-50 il bundan öncə öz nənə, analarımızda görmüşük. Sovet dövründə bir ana 10-13 övlad dünyaya gətirirdi. Ən azı 7-8 övlad olurdu. Qəhrəman analar var idi, onlara ad verilirdi, onlara həvəsləndirici məbləğlər ödənilirdi. Həmin analar övladlarını mətbəx zənginliyi olmadan, kolxozda işləyərək, qucağında biri, belində bir uşağı çalışaraq böyüdürdülər. Ərlərinə də, övladlarına da baxırdılar. Burada kəmiyyət, keyfiyyət məsələsi var. Baxmayaraq ki, övladların sayı çox olurdu, rayonlarımızın ucqar kəndlərində həmin ailələrdən 5-8 ali təhsilli adamlar yetişirdi. Əsl qəhrəman ana obrazı həmin qadınlar idi. Bu məsələyə daha modern yanaşsaq, indi "azərbaycanlı ana" deyəndə prioritet məsələ olmadan imkan daxilində təhsil almalıdır.

Evdə ata, qardaşının hörmətini saxladığı kimi öz ərinin də hörmətini saxlamalıdır. Qadının işləməsi onun iqtisadi asılılığının qismən azad olması onun əri ilə bərabər vəzifəli olması anlamına gəlməz. Bizim klassik ailə dəyərlərimizdə kişinin öz yeri, qadının öz yeri var. Bəzən hüquqlarla vəzifələri səhv salırıq. Deyirik ki, qadınla kişinin hüquqları eynidir. Bəli, bizim konstitusion hüququmuz eynidir, qadının da kişinin də səsvermə hüququ var. Amma vəzifələrimiz fərqlidir. Qərbin bizə aşılamaq istədiyi feminizm qadınlarımızın əxlaqını pozmağa, klassik ailə dəyərlərimizi dağıtmağa yönəlik addımdır. Əslində təəssüf olsun ki, buna qismən də nail olurlar. Bu sürətlə görünür ki, getdikcə buna nail olacaqlar.

*- Soyunmağa meyilli olan qadınların sevgiyə möhtac olduğu deyilir. Bu, doğrudur?*

- Allah bəşəriyyətdə insan olaraq iki cins yaradıb: kişi və qadın. Bunların bir-birinə hissləri, ehtiyacı var. Allah Qurani-Kərimdə deyir ki, kişi və qadın bir-birinin libasıdır. Bir-birinin həm müəyyən ehtiyaclarını ödəyirlər, həm də qarşılıqlı ehtiyacları var. Bu ehtiyaclardan biri də sevgidir. Bu sevginin heç də geyimlə əlaqəsi yoxdur. Bu özü əxlaqsızlığın başqa ad altında tərənnümü deməkdir. Əxlaq gendən gələn bir amildir. Mən buna əlavə etmək istəyirəm. Genetik faktorlar da var, amma birbaşa əxlaq gendən asılı deyil. Çünki biz əxlaqsız ailədə doğulmuş bir övladı götürüb əxlaqlı ailəyə versək, 18-20 ildən sonra əxlaqlı insan görə bilərik. Yaxud da, əksinə ola bilər. Ona görə, əxlaq əslində sonradan qazanılan bir faktordur. Övladların az və çox olmasının çoxlu səbəbləri var. Səbəblərdən biri də cəmiyyətdə maddi disbalansın yaranması, əvvəlki dövrlərə nisbətən indi yaşam vasitələrinin daha çox maddiləşməsidir. Bu gün demək olar ki, kasıbın da, orta yaşayan ailələrin də övladları repetitor yanına gedir. Çünki repetitor yanına getməsən, demək olar ki, ali məktəbə qəbul ola bilməzlər. İstisna hallar olur, digər vaxtlarda mütləq repetitor yanına getməlidir. Çünki maddi ehtiyaclar çoxalır. Bir şeyin qazanılması üçün müəyyən bir şey qurban verilməlidir. Zən edən ki, bir qadın həm kariyera qurmalıdır, həm təhsil almalıdır, kişi də eyni zamanda işləməlidir. Dünyaya gətirilən uşağa evdə kim baxacaq? Hamının evdə qayınanası, baldızı yoxdur. 18 yaşında bir xanım ali məktəbə daxil olursa, 21 yaşında ali məktəb bitir. Əgər 21 yaşında ailə qursa, övlad dünyaya gəlsə, uşağın ən azından bağça yaşında ananın evdə qalması lazımdır. Çünki bu mərhələdə dərhal kariyera mərhələsi fəsad verəcək. Çünki evdə gələcək üçün övladın tərbiyəsi, təhsili var. İlkin, fundamental tərbiyə insanın həyatında çox önəmli yer tutur.

*- Reklam, yoxsa əxlaqsızlıq?*

- Həzrəti Əlinin bir sözü var. Deyir ki, başqasının namusundan gözünü çək ki, sənin də namusundan gözlərini çəksinlər. Həyat bumerangdır, misalı var. Bir kişi gərək kişi olsun. Kişi ətrafdan anasına, bacısına hansı münasibətin göstərilməsini istəyirsə, bunu düstur kimi özü üçün götürməlidir. Başqasının namusuna qarşı diqqətli olmalıdır. Fərqi yoxdur, qarşındakı xanım necə geyinib, o bilər, Allahı bilər. Sən bu məsələni özün üçün prioritet kimi götür. Bizim cəmiyyətdə köhnə bir yanaşma var. Yaşlı insanlarımız əvvəllər boşanmış qadına sanki ləkələnmiş qadın kimi baxırdılar. Amma boşanmaq belə deyil. Təbii ki, boşanmaq yaxşı bir şey deyil. Cəmiyyətimizdə 90%-dən çoxu özünə müsəlman deyir. Allahın sevmədiyi əməl boşanmaqdır. Bu bizə düzgün hədis kitablarında gəlib. Amma belə bir qayda da yoxdur, birinə ərə getdin, ömrünün sonuna kimi onunla yaşamalısan.

Təbii ki, ailə quranda bu məqsədlə yanaşırsan. Gedişatda insanlar bir-biri ilə sevib evlənirlər. Bir müddət keçdikdən sonra ya insani keyfiyyətlərinə görə hörmət edirlər, ya da keyfiyyətsizliklərini görüb sevgiləri yoxa çıxır. Hətta nifrətə çevrilir. Bir uğursuz ailə varsa, bu, kişinin anormal olmasından, qadının da əxlaqsız olmasından xəbər vermir. Ola bilər ki, xarakterləri uyğun gəlmir. Sonunda çıxış yolunu ayrılmada görürlər. Nə kişiyə, nə də qadına pis baxmaq lazımdır. Əgər əxlaqlı qadın ailə qurduqdan sonra əri pis vərdişlərə qurşanıbsa, ruhən və fiziki olan bir insanla niyə həyat sürsün? Qeyd edim ki, fiziki şikəst olan insanla ömür başa vuran bilərsən. Çünki heç kim heç nədən sığortalanmayıb. Bizim nə qədər qazilərimiz var. Onların hesabına biz rahat oturmuşuq. Amma bir insanın mənəviyyatı, əxlaqi şikəst oldusa, onunla ömür cürütməyə dəyməz. Ondan boşanmaq lazımdır. Ona görə də, biz boşanmış qadınlara əxlaqsız damğasını vurmamalıyıq. Heç kim boşanmadan sığortalı deyil.

*- Qadının geyimi, yoxsa üzündəki ifadə önəmlidir?*

- Təbii ki, geyim əxlaq göstəricisidir. Qadın geyiminə fikir verməlidir. Nəinki qadınlar, hətta kişilər də nə gəldi geyinə bilməz. Bu gün biz təəssüflər olsun ki, bəzi kişiləri də anormal geyimlərdə görürük. Bu, heç də ürəkaçan deyil. Hamımızın bildiyi sosial şəbəkə məsələsi insanların əxlaqına çox təsir edir. Bu gün hər kəsin əlində telefon əlçatandır. Ələlxüsus da, "TikTok" sosial şəbəkəsində istənilən əxlaqa sahib insanlar istənilən təbliğatını aparır. Ən təəssüfləndirici məqam ondan ibarətdir ki, canlı yayımlarda on minlərlə izləyici var. Alim, həkim çıxıb faydalı bir şey danışırsa, 100-150 nəfər baxır. Hər hansı əxlaqsız çıxanda canlısında 14 min adam olur. Hədiyyələrin sayı-hesabı yoxdur. Onlar bu hədiyyələrin hesabına evlərə, maşınlara sahib olurlar. Dəhşətlisi odur ki, onlar bizim dəyərlərdən danışırlar. LGBT nümayəndəsi kişilikdən danışır. Qadın və oğlanlar da deyir ki, "sənə halaldır". Cəmiyyətimizin başqa problemlərindən biri də budur ki, bu şeyləri tənqid edən adamlar çılpaq geyinən müğənniləri, reklam aparan simaları görəndə inanın ki, şəkil çəkdirməyə qaçırlar. Halbuki, şərhlərdə tənqid yazırlar. İctimai qınaq olmalıdır. Dəyərlərimizə sahib çıxmalıyıq. Avropadan gələn dəyərləri milli süzgəcdən keçirmədən qəbul etməməliyik. Təəssüflər olsun ki, biz Avropa istiqaməti götürmüşük. Əgər dəyərlərimizə sahib çıxmasaq, 25 ildən sonra indiki gənclərin bəlli yaşı olacaq. Onlar bu məsələlərə artıq əxlaqi normativ kimi baxacaqlar.



**Söylü Ağazadə**

*İran Prezidenti Məsud Pezeşkiyanın Azərbaycana səfəri və söylədikləri fikirlərə görə hazırda erməni cəmiyyətində məhz böyük rezonans müşahidə edilməkdədir. İran liderinin mövqeyindən, ölkəmizə olan münasibətindən hayların yamanca qorxuya düşdükləri qətiyyən diqqətdən yayınan deyil, çünki nəzərə çarpacaq dərəcədədir və bu qorxu artıq hiss edilməyə, görünməyə bilməz. Görünən odur ki, bu vaxta qədər arxalandıqları bir ölkənin rəhbərinin istər Azərbaycana səfəri, istərsə də ölkəmizdə səsləndirdiyi fikirlər erməni cəmiyyətini əməlli-başlı "silkələyib" və İran Prezidentinin xalqımızla bağlı dostcasına dediklərini rəsmi Tehranın mövqeyi olaraq başa düşən haylar bunu özlərinin qorxduqları çox böyük problem hesab edirlər.*

# Hayların qorxduqları ÇOX BÖYÜK PROBLEM



## Əhəmiyyətsiz olduqlarını, hesaba alınmağa layiq olmadıqlarını görəcəkləri gündən qorxan haylar indi bunu özlərinə çox böyük problem bilirlər

Hazırda erməni cəmiyyətində bir sual ortaya çıxıb ki, görəsən, bundan sonra haylar nə etməlidirlər və İran liderinin Azərbaycana səfərinə, fikirlərinə, mövqeyinə necə reaksiya verməlidirlər? Erməni mətbuatı bir-birinin ardınca təkcə İran prezidenti Məsud Pezeşkiyanın Azərbaycana səfəri faktı ilə bağlı deyil, həm də onun Bakıda söylədiyi hər bir fikirlə bağlı çox yazır və İran liderinin mövqeyini rəsmi Tehranın mövqeyi olaraq qəbul etməklə, bunun ölkələri üçün çox böyük problem olduğunu açıq-aşkar şəkildə yayır. Hətta bütün deyilənləri, Azərbaycan barədə İran liderinin fikirlərini "lazımsız sözlər" adlandırır. "Azərbaycan xalqının hüquqlarına hörmət edilməli və Qarabağ Azərbaycanın olmalıdır", deyə Pezeşkiyanın bəyan etdiyindən haylar lap çox qorxuya düşüblər. Sözsüz ki, bu zamana qədər məhz Qarabağla bağlı İrandan dəstək uman haylar sanki birdən-birə dəstəklə bağlı da son ümidlərini itiriblər. Bir zamanlar Rusiyanın, rusların "ətəyindən yapışan" və qəflətən əlləri üzülən, sonra da İrana "söykənməyə hazırlaşan" haylar üçün bu dəfə də ümidsizlik girdabına düşmək əvvəldən qorxduqları olub və bunu, bu qorxunu indi çox böyük problem hesab etmələri də başadüşüləndir.

"Burada olduğum üçün özümü yad ölkədə hiss etmirəm. Sanki Təbrizdə, Ərdəbildə olmuşam. Sanki doğulub boya-başa çatdığımız və yaşadığımız Azərbaycandayıq", deyə Məsud Pezeşkiyanın vurğulamasından ermənilərin gözləri lap çox bərəlib və bu sözlərdən daha böyük qorxuya düşüblər. Çünki başa düşüblər ki, artıq Azərbaycanla dialoqun qurulması üçün İran hər şeyi etməyə hazırdır. Əslində, belə düşünmək daha düzgün olardı ki, bəli, İran artıq qəbul və etiraf edir ki, Azərbaycanla dialoqun qurulması üçün hər şeyi etməyə dəyər. Bu həm də o deməkdri ki, Azərbaycan böyük əhəmiyyət kəsb etdiyi halda, Ermənistan daha İran üçün tamamilə əhəmiyyətsiz bir ölkədir və azərbycanlılar doğma sayıldıqları fonunda, haylar heç hesaba da alınmırlar. Reallıq bundan ibarətdir ki, haylar elə hər zaman, həmişə bundan, beləcə əhəmiyyətsiz olduqlarını, hesaba alınmağa belə layiq olmadıqlarını görəcəkləri gündən qorxublar və indi də həmin reallıqla qarşılaşıblar deyə, bunu çox böyük problem hesab edirlər. Məhz qorxduqları və çox böyük problem hesab etdikləri də artıq düz gözləri önündədir.

## Reallıqları görmək məcburiyyətində qalan haylar artıq əməlli-başlı bədbinliyə qapılıblar

İndi haylar bir çox reallıqları görmək məcburiyyətindədirlər və bütün bu reallıqları da özləri üçün çox böyük problem hesab edirlər. Təkcə İran liderinin ölkəmizdə olmasını deyil, eləcə də İsrailin baş naziri Benyamin Netanyahunun 8 may tarixində Azərbaycana dövlət səfəri edəcəyini və mayın 11-nə qədər ölkəmizdə qalacağı xəbərini də eşidən haylar yuxularını qarışdırıblar. Səfər zamanı Netanyahunun məhz Azərbaycan prezidenti cənab İlham Əliyevlə iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi məsələlərini müzakirə edəcəyini və yaxşı başa düşən haylar buna görə daha da bədbinliyə qapılıblar. Çünki hesab edirlər ki, müzakirələrdə İran məsələsinin xüsusi yer tutacağı da mümkündür və bu məqamı da özləri üçün çox böyük problem sayırlar.

Artıq Ermənistana məxsus mətbuat səhifələrində açıq-aydın şəkildə qeyd olunur ki, Azərbaycan hansısa məqamda, bu münaqişədə, İran və İsrail arasında olan gərginlikdə də vasitəçi rolunu oynaya bilər. İndi ermənilər acizanə şəkildə etiraf edirlər ki, belə bir vasitəçilik Azərbaycan üçün olduqca uğurlu olacaq. Etiraf edirlər ki, Ermənistan belə bir rol, vasitəçilik kimi bir rol oynaya bilmədi. Həqiqətən də oynaya bilməz. Haylar başa da düşürlər ki, belə bir vasitəçilik rolunu oynamaq şansları heç zaman da olmayıb. Ona görə olmayıb ki, İsrail heç zaman Ermənistanı belə bir statusda görməyib. Onu da başa düşürlər ki, bəli, İsrail məhz Azərbaycanı belə bir statusda görüb, indi də görür və bu rakursda da Ermənistan heç müqaisəyə belə gələ bilən ölkə deyil. Deməli, daha bir "dərd" çəkməli olan haylar bundan da hər zaman qorxduqları üçün məhz bunu da bir böyük problem hesab edirlər və reallıqları görmək məcburiyyətində qalan haylar artıq əməlli-başlı bədbinliyə qapılıblar.

## Erməni cəmiyyəti məhz qorxu fonunda çox böyük problemlər qarşısında olduğu qənaətindədir

Yaxın zamanda Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın da Azərbaycana səfər edəcəyi xəbərini alan haylar lap dilxor olublar. Xüsusən də, Ərdoğanın ikitərəfli hökumətlərarası komissiyanın dördüncü birgə iclasında iştirak etmək üçün Azərbaycan paytaxtına səfər etmək niyyətində olduğu barədə Türkiyə mənbələrinin rəsmi olaraq xəbər yaymasından sonra ermənilərin elə bir kürklərinə birə düşüb. Çünki başa düşürlər ki, artıq rəsmi Bakı qlobal miqyasda söz sahibinə çevrilib və proseslərdə də yaxından iştirak edir. Başa düşürlər ki, Ermənistandan fərqli olaraq, Azərbaycan regionda da, dünyada da baş verən proseslərdə nəzərə alınan ölkə sayılır. Bunu da haylar qətiyyən həzm edə bilmirlər. Əslində, hər zaman özlərinə düşmən hesab etdikləri Azərbaycanın belə bir nüfuz, belə bir söz sahibi olacağı qorxusu ilə yaşayıblar deyə, indi bu qorxulu yuxularının çin olduğunu görmək onlar üçün çox böyük problem kimi gözlərinə görünür.

Diqqətə çatdıraq ki, erməni cəmiyyətini qorxuya salan məqamlardan biri də Azərbaycanın məhz Amerika kimi bir dövlətlə əlaqələrinin getdikcə daha da yaxşılaşmasıdır və haylar hətta yaxın zamanda ABŞ Prezidentinin də eyni ilə məhz Pezeşkiyan kimi fikirlər səsləndirəcəyindən qorxurlar. Nəzərə çatdıraq ki, hayların qorxduqları hər zaman başlarına gəlir və əslində, hadisələrin gedişatı onu deməyə əsas verir ki, bəli, bir gün həqiqətən də ABŞ lideri də İran Prezidenti kimi eyni fikirləri məhz Bakıda səsləndirəcək. Bax elə bu qorxu ilə də yaşayan haylar sual edirlər ki, o zaman nə edəcəklər? "Bəs Tramp özü də Qarabağın Azərbaycana məxsus olması ilə bağlı nə isə desə, rəsmi Bakı ilə yaxınlaşma kursu elan etsə, haylar nə edəcəklər?", sualı qarşısında da acizlik Ermənistana məxsus mətbuat səhifələrində də öz əksini tapır. Hətta erməni KİV-ləri açıq şəkildə yazırlar ki, hadisələrin bu cür inkişafının qarşısını almaq üçün Ermənisyanda heç bir real mexanizm yoxdur. Məhz bunu da çox böyük problem saydıqlarını da haylar gizlətmirlər. Çünki haylar səhvlərini, yanlış yolda olduqlarını, yanlışlıqlarını deyil, məhz qorxduqlarını özləri üçün çox böyük problem hesab edirlər. Bir sözlə, erməni cəmiyyəti məhz qorxu fonunda çox böyük problemlər qarşısında olduğu qənaətindədir...

***İnam Hacıyev***

# Allergiya:

## qidadan, geyimdən, havadan...

### Mövsümi xəstəlik olan allergik səpkilər ən çox balacaları hədələyir

**Yaz aylarında allergik xəstəliklərin tüğyan eləməsinin səbəbləri çoxdur. Ağacların çiçəklənməsi, tözlanması da bəzi sağlamlıq problemləri yarada bilir. Allergiyası olan insanlar adətən yaz aylarında astma simptomları, burunun tutulması, asqırma, öskürmə, göz qaşınması kimi problemlər yaşayırlar.**

Bəzi insanlar zərərli olmayan maddələrə qarşı daha çox həssas olub, həddindən artıq reaksiya göstərir. Allergen deyilən bu maddələr immunitet sistemimizlə təmas edəndə zərərli olmadığı halda bədən ona qarşı böyük miqdarda qoruyucu maddə yaradır. Bu vəziyyətə allergiya deyilir.

Havanın çirklənməsi tənəffüs yollarına birbaşa təsir edən ən mühüm ekoloji risklərdən biridir. İşlənmiş qazlar, sənaye obyektlərindən buraxılan qazlar və tozlu hava astma tutmalarını şiddətləndirir, allergik reaksiyalara məruz qoyur. İqlim dəyişikliyinin allergik insanların sağlamlığına təsir etdiyi artıq bütün dünyada qəbul edilən vəziyyətdir. İqlim dəyişikliyi polen allergiyalarının çoxalmasının birbaşa səbəbidir. İqlimdəki dəyişikliklər rinit və astma kimi allergik xəstəliklərə ciddi təsir edir. Daha həssas olanlar isə uşaqlar, yaşlılar və astma, rinit kimi xəstəliklərdən əziyyət çəkənlərdir.



Habelə, istixana qazları astma və xroniki obstruktiv ağciyər xəstəliyi olan insanlarda tənəffüs problemləri yaradır, həmçinin vaxtından əvvəl ölümə və ağciyər funksiyasının zamanla itirilməsinə səbəb olur. Daşqın və şiddətli tufanlar nəticəsində binalar nəm çəkir, nəticədə kif əmələ gəlir. Bu da öz növbəsində allergik reaksiyalara səbəb olmaqdan əlavə, digər ağciyər xəstəliklərinə yol açır.







Allergik orqanizmlər qat-qat həssas olur. Bəzi insanlar allergik xəstəlikləri ağır keçirirlər. Uşaqlar bu xəstəliyə daha çox tutulan yaş qisminə aiddir. Allergik xəstələr daha çox anadangəlmə bu cür olsa da onlardan bəzisi gələcəkdə orqanizmini narahat edən maddələrə qarşı immunitet yarada bilir. Amma bir çox insan həyatının sonuna qədər bədənində problem yaradan maddələri ehtiva edən qidalar qəbul edə bilmir. Ətrafımızda anadangəlmə çiyələyə, güllərə, sitrus meyvələrinə, toz dənəciklərinə, yun paltarlara, hətta çörəyə belə allergiyası olan kifayət qədər uşaq var.

Məlumat üçün qeyd edək ki, hazırda insanların ən az 30 faizində allergik xərtəlik var. Allergiya genetik səbəblərə bağlı xəstəlikdir. Lakin tez-tez özünü büruzə verməsində ekoloji faktorların da təsiri çoxdur. Nə qədər çox allergik reaksiyalara məruz qalınsa allergik xəstəliklər də bir o qədər çox peyda olur. Bundan əlavə, mövsümlərin qeyri-normal keçməsi də allergiyanın ortaya çıxmasında əhəmiyyətli rol oynayır. Ekoloji problemlər indi hər mövsümə xarakterik allergik xəstəliklər də yaradıb.



Toz dənəcikləri, gözlə görülməyəcək qədər kiçik böcəklər, plastik tullantılar, kimyəvi təmizləmə vasitələri, ətirlər, ev heyvanların tükləri, günəş, kif göbələkləri, parazitlər, çirkli atmosfer, tullantılardan hazırlanmış ucuz paltarlar allergik xəstəlikləri meydana çıxaran əsas amillərdir. Bunlardan əlavə, bəzi "fast-food"ların tərkibindəkli kimyəvi elementlər, uşaq krakerləri və suxarılarının tərkibinə vurulmuş kimyəvi ədvalar, meyvə şirəsi kimi təqdim edilən rəngli sular, geni dəyişdirilmiş məhsullar, mövsümündən əvvəl yetişdirilən meyvələr də allergik problemlərə səbəb ola bilər.

Allergik xəstəliklər insan həyatını məhdudlaşdırır və həmin şəxsin işdəki, sosial həyatdakı performansına böyük təsir göstərir. Allergiya hətta ani ölümlə nəticələnə bilən təhlükəli bir xəstəlik kimi də xarakterizə edilir. Hər xəstəliyin əlaməti fərqlidir. Eyni allergik xəstəliklərdə rastlanan əlamətlər fərqli ola bilər, bu fərdə görə dəyişə bilir.

Erkən diaqnoz xəstəliyin müalicəsi və irəliləməsinin qarşısının alınması üçün çox əhəmiyyətlidir. Allergik xəstəliklərin təyini o qədər də çətin deyil. Bəzi zamanlar adi allergiyanı təhlükəli xəstəliyin əlaməti hesab edən həkimlər pasiyentin ağır yoluxucu xəstəlikdən əziyyət çəkdiyi qənaətinə də gəlirlər. Amma allergik səpkilərin səbəbinin dəqiq öyrənilməsi üçün pasiyentin bir neçə yüngül təhlil və test etdirməsi kifayətdir.

Pediatr Elnarə Quliyeva deyir ki, yaz və yay aylarında uşaqlar arasında ən çox rast gəlinən xəstəliklər allergik xəstəliklərdir: "Buna səbəb ağacların yaşıllaşması, dolayısı ilə tozlanma prosesinin başlanmasıdır. Nəticədə uşaqlarda daha çox dərinin və tənəffüs sistemlərinin allergik xəstəliklərinə rast gəlirik. Xəstəliyin qarşısını almaq üçün tədbirlər görürük, lazımlı müalicə təyin edirik. Amma qeyd etmək lazımdır ki, mövsümü xəstəliklərdə boldur və onların da qarşısı müxtəlif yollarla alınır. Ötən qış uşaqlar arasında kəskin respirator virus infeksiyalarının sayı artmışdı. Səbəb qışın qeyri-normal keçməsi və qarın yağmamasıdır. Amma indi ölkəmizdə uşaqlar arasında təhlükəli xəstəlik yoxdur".

Qeyd edək ki, valideynlərin əksəriyyəti övladında məxmərək xəstəliyinin əlamətlərinə bənzər səpkilər aşkarladığını iddia edir. Amma səpkilər olan uşaqlardan analiz götürülərək həm ölkədaxili, həm də ölkədənkənar referens laboratoriyaya göndərib. Müsahibimiz bildirir ki, səpkilərin böyük əksəriyyəti allergiyalardan bağlıdır. Amma səpən uşalqraın arasında qızılca olanlara da rast gəlinib.

Allergiyanın qarşısını almaq üçün əvvəlcə allergiyaya səbəb olan faktorları aradan qaldırmaq lazımdır. Bunun üçün uşaqlar üçün yun, heyvan tükü ehtiva edən yastıq və yorğanlar istifadə edilməməlidir. Tüklü oyuncaqlar yığışdırılmalıdır. Ev tozundan, görünməyən mikroblardan xilas olmaq üçün isə uşağın geyimlərinin gündəlik, yataq örtülərinin həftədə bir dəfə ən az 60 dərəcə isidilmiş suda yumaq lazımdır. Əgər allergiyanın səbəbi kifdirsə, otağının nəmi azaldılmalıdır. Poletilen əşyalara allergiyası olanlar isə təbii vasitələrlə təmasda olmalıdır. Quru və küləkli havalar da toza qarşı allergiyası olanlar üçün risk faktorudur. Günəşli havada çölə çıxan uşaqlara eynək və günlüyü olan papaq geydirmək vacibdir.

***Lalə Mehralı***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**ELMİN SONU**

*(XXIV YAZI)*

(Əvvəli ötən saylarımızda)

**De: "Sizi yaradan, sizə qulaq, göz və qəlb bəxş edən Odur. Nə qədər də az şükür edirsiniz!" (Quran, Mülk surəsi, 23)**




Bu seriyadan olan əvvəlki yazılarımızda insan orqanizmindəki bəzi möhtəşəm möcüzələrdən danışmışdıq. Bu hissədə isə digər yaradılış texnologiyalarından- orqanizmimizin fəaliyyətini və təhlükəsizliyini təmin edən bəzi biosistemlər haqda danışacağıq.

İnsanın ən əsas biosistemlərindən biri nəfəsalmadır və orqanizmin əsas ehtiyaclarından biri də oksigen qəbul edərək karbonu kənarlaşdırmaqdır. Bunu təmin edən system o qədər mürəkkəb və mükəmməldir ki, bu yüksək dəqiqliklə hesablanmış və yaradılmış bioloji qurğular adamı heyrətə gətirir.

Nəfəs alma və vermədə ilkin xarici orqanlar burun və ağızdır. Burun qəbul edilən havanın tempraturunu tənzimləyən, tərkibini təmizləyən mükəmməl bir kondisoner sistemidir. Burun havanı nəmləndirir, bakteriya və mikroblardan təmizləyir, ağciyərlər üçün uyğun vəziyyətə gətirir. Hər hansı bir zərərli maddə bu sistemi keçə bilərsə, 2-ci bir müdafiə xətti ilə qarşılaşır- burunun və yuxarı nəfəs yollarının selikli qişası bu maddələri özünə yapışdıraraq onun ağciyərlərə keçməsinin qarşısını alır. Burada yığılan təhlükəli maddələrin çoxalıb problem yaratmaması üçün başqa bir təhlükəsizlik sistemi dövrəyə girir- selikli qişanın altında yerləşdirilən kiçik tükcüklər bu maddələri udlağa doğru itələyir, burada udma refleksi işə düşür və həmin maddələr mədəyə yönəldilir, orada isə mədə turşusu tərəfindən məhv edilir. Bundan əvvəl isə daha bir qoruma sistemi var- bu maddələr udlağa çatdıqda öskürmə refleksi işə düşür və bu maddələr orqanizmdən kənarlaşdırılır. Bir sözlə aldığımız havanın təmizlənməsi və qalıqların xaric edilməsi üçün 3 təhlükəsizlik sistemi işləyir.



İnsan ağzından həm yemək, həm də nəfəs almaq üçün istifadə edə bilər. Yeməyin itələdiyi yemək borusunun düz yanında, havanın ağciyərlərə çəkildiyi traxeya var. Ancaq burada çox vacib bir məqam var. Əgər çeynənmiş yemək yemək borusuna deyil, nəfəs borusuna düşərsə, bu, ölümə səbəb ola bilər. Bir insan hər gün yüzlərlə dəfə udur. Burada risk yaranmasın deyə ən rasional və praktiki həll yolu tənəffüs yollarında geri çəkilə bilən bloklayıcının (klapan) olmasıdır.

Nəfəs borusunun yuxarı hissəsində yerləşən kiçik toxuma klapan hər udma zamanı nəfəs borusunu avtomatik olaraq bağlayır. Bu şəkildə yemək zamanı suyun və ya qidanın nəfəs borusuna daxil olmasının qarşısı alınır. Qida udulduqdan sonra bu qapaq öz yerinə qayıdır və nəfəs borusundan havanın keçməsini təmin edir.

Lakin bu sistem bütün insanlarda standart quruluşda deyil. Məsələn, normal bir insanın qapağının quruluşu körpənin qapağının quruluşu ilə eyni olarsa, körpə üçün təhlükəli vəziyyət yaradardı. Bu səbəbdən körpələrdə qapaq sistemi böyüklərdən daha yüksəkdə yerləşir. Bu yolla körpə nəfəs alarkən ana südünü rahatlıqla əmir. Bu səbəbdən körpələr əmizdirərkən ağlamır və boğulmurlar. Körpələrdəki qapaq sistemi böyüklərdəkinə bənzər bir quruluşa malik olsaydı, körpələr əmizdirərkən boğula bilərdi.

Mədədən bağırsaqlara açılan bölmədə bir qapı var. Bu qapının varlığı çox vacibdir. Bağırsaqları və mədəni bir-birindən ayıran qapı olmasaydı bağırsaqlardakı qidaların yenidən mədəyə daxil olma ehtimalı olardı. Bu, mədənin öz xüsusi turşu mühitinin pisləşməsinə səbəb olacaq. Çünki bağırsaqlardakı fermentlər daha neytral və əsas mühitdə işləyir. Mədədə turşu səviyyəsi bağırsağın xüsusi fermentlərini pozar və çox təhlükəli nəticələrə səbəb olardı. Ancaq belə bir vəziyyət yaranmır. Çünki bütün məqamlar ən incə detallarına qədər nəzərə alınmışdır.

Bədəndə qidanın həzm traktından keçməsinə imkan verən müxtəlif mexanizmlər var. Bunlardan biri bağırsaqlarda hamar əzələlərin qeyri-ixtiyari daralmasıdır. Bu əzələlərin ritmik büzülmələri sayəsində qida tək tərəfli bir hərəkətlə irəliləyir. Ancaq burada sual odur ki, qida maddələri niyə həmişə irəli gedir. Kanadanın McMaster Universitetində bu mövzuda çalışan tədqiqatçı Jan Huizinganın başçılıq etdiyi bir qrup alim bu birtərəfli hərəkəti təmin edən hüceyrələri araşdırıb. Tədqiqatlarında onlar həzm sistemi boyunca yerləşdirilən mikroelektrodlardan istifadə ediblər. Bu mikroelektrodlar bəzi hüceyrələrin davamlı və nizamlı elektrik cərəyanı yaratdığını aşkar ediblər. Məhz bu hüceyrələrin yaratdığı elektrik cərəyanı bağırsaq divarındakı halqavari əzələlərin bir-birinin ardınca büzülməsinə səbəb olur. Ancaq bu mexanizmin mükəmməl işləməsi üçün sadəcə elektrik cərəyanı yaratmaq kifayət deyil. Eyni zamanda, axın səhvsiz bir ritmlə yaradılmalıdır. Cajal hüceyrələri buna görə də bağırsaqlarda bir şəbəkə meydana gətirirlər. Bu şəbəkə onlara eyni ritmdə elektrik cərəyanını boşaltmağa imkan verir. Bu qüsursuz mexanizm sayəsində yediklərimiz mədəmizdə qalır və bədənimiz üçün faydalı bir şeyə çevrilir. (Science et Vie, sentyabr 1998).

Qan hüceyrələrinin (qırmızı qan hüceyrələri, ağ qan hüceyrələri) üzdüyü mayenin adı qan plazmasıdır. Qan plazması sadə maye deyil, tərkibində çoxlu xüsusi maddələr olan xüsusi qarışıqdır. Plazma sarımtıl rəngli mayedir, tərkibində 90-92% su, 6-8% zülal, həmçinin həll olunmuş duz, qlükoza, yağ və amin turşuları, karbon qazı, azotlu tullantılar və hormonlar var. Qanda olan bərk maddələrdən biri olan qlükoza çox vacib bir maddədir. Qlükoza beyin tərəfindən yanacaq kimi istifadə olunur. Buna görə də onun qandakı səviyyəsi hormonlar tərəfindən sabit saxlanılır. Qanda qlükozanın miqdarı müəyyən səviyyədən aşağı düşərsə, həddindən artıq stimullaşdırma, huşunu itirmə, əzələ titrəməsi və bir müddət sonra koma və ölüm baş verir.

Analoji sistemlər başqa formalarda bütün bədəndə qurulub. Məsələn, dərimizdəki reseptorlar da toxunuçu hissetməmizi mükəmməl hala gətirir. Bədənin səthində yayılmış təxminən 640.000 həssas dəri reseptoru var. Bu reseptorlar barmaqlarımızın ucundakı ən kiçik sürtünməyə belə millisaniyələr ərzində reaksiya verir. Nəticədə barmaqlarımızın ucları ilə böyük dəqiqlik tələb edən işləri yerinə yetirə bilirik. Kor adamlar barmaqlarının ucu ilə Brayl şriftini oxuyur. Ancaq barmaqlarının oynaqları və ya xarici səthləri kimi bədəninin hər hansı digər hissəsi ilə bunu edə bilməz. Çünki barmaqların ucunda qavrayışa həssaslıq dərəcəsi reseptorların sayına nisbətdə çox böyükdür.

Ancaq məsələn, kürəyimiz barmaq uclarımız qədər həssas deyil. Əks təqdirdə, paltarımızın bədənimizə toxunması və ya bir şeyə söykənməyimiz bizim üçün son dərəcə narahat olardı, çünki kürəyimiz ən kiçik qeyri-bərabərliyi belə intensiv şəkildə hiss edərdi. Yaradıcının bədənimizi ehtiyaclarımıza və istifadə asanlığına görə çox xüsusi bir biotexnologiya yaratdığı açıq şəkildə görünür. Qüsursuz yaradılışda hər şey mükəmməl dərəcədə nəzərə alınmışdır.

Orqanizmimizin möcüzələrindən biri də səs sistemimizdir. Səs və nitq ətraf mühitlə ünsiyyət qurmağın, sevinc və kədər kimi düşüncələrin, hissləri fərqli səs tonlarından istifadə edərək ifadə etməyin yeganə yoludur. İnsan səsi çox müxtəlif tonlar çıxardığı üçün indiyə qədər hazırlanmış hər hansı musiqi alətindən milyonlarla dəfə qeyri-adi bir quruluşa və funksiyaya malikdir.

Səsin əmələ gəlməsi üçün qırtlaq, dil, dişlər, damaq, dodaqlar və havadakı əzələlər kimi bir çox orqan bir-biri ilə mükəmməl uyğunlaşır. Əgər belə bir koordinasiyalı şəraitdə sinxron işləyən mükəmməl sistem olmasaydı, danışmaq istədikdə anlaşılmaz, narahatedici bir səs-küy yaranardı. Səs çıxara bilməmiz üçün təkcə bu sistemin varlığı kifayət etmir. Eyni zamanda, havanın olması da lazımdır. Üstəlik, bu hava hər insanın boğazında müxtəlif burulğanlar yaradaraq səsi hər insana xas edir.



Səs və nitqi yaradan avadanlıq və mühit hər insanda eyni olsa da, hər bir insanın özünəməxsus bir səsə malik olması mümkün olur. Hər bir insanın səs çıxarmağa cavabdeh olan orqanlardan istifadə etmə tərzi fərqlidir. Ona görə də hər kəsin öz səs tonu var.

Bu mövzuda maraqlı bir fakt- İnsandan başqa heç bir canlının cinsini onun səsinə qulaq asmaqla ayırd etmək mümkün deyil.

Əllərimiz və onun hərəkəti isə orqanizmimizdə yaradılmış ayrı bir mükəmməl mexanizmdir. Əlimizə mükəmməl hərəkətliliyi verən əldə xüsusi qaydada yerləşdirilən əzələlərdir. Bir-biri ilə mükəmməl harmoniyada hərəkət edən bir çox əzələlər ələ onun çoxfunksiyalı xüsusiyyətini verir. Əldəki bütün barmaqlar funksiyalarına görə ən uyğun uzunluqlara malikdir. Bundan başqa, onların yerləşdiyi yerlər mümkün olan ən uyğun yerlərdir. Barmaqların bir-birinə nisbətləri də son dərəcə vacibdir. Bu əhəmiyyəti bir misalla izah edə bilərik. Baş barmaq asanlıqla digər barmaqların üzərinə bükülə bilər. Bu, baş barmağın digər barmaqları dəstəkləməsinə imkan verir və qol gücünü artırır.

Orqanizmimizdə çox maraqlı təhlükəsizlik sistemləri var ki, saymaqla bitməz. Onlardan birinə baxaq. Bədənimizdə qanaxma olduqda, möcüzəvi şəkildə bizim nəzarətimizdən kənar cərəyan edən bir sıra hadisələr sayəsində qanaxma dayandırılır. Bu hadisə qanın laxtalanmasıdır. Yer üzündə bir zülal yamağı toxumaqla dəliyi bağlaya bilən yeganə maye qandır. Daha bir möcüzə də odur ki, qan bunu inanılmaz sürətlə hərəkət edərkən edir!

Qan və toxumalarda laxtalanmanı başlatan, sürətləndirən və sonra dayandıran 40-dan çox maddə var. Laxtalanma bədəndə çox idarəli şəkildə baş verir.

Bir qan damarı zədələndikdən bir neçə saniyə sonra bədəndəki bütün sinir və təmir sistemləri stimullaşdırılır. Qanın laxtalanmasında ilk addım trombositlər tərəfindən əmələ gəlir. Trombositlər sümük iliyinin daha böyük hüceyrələrindən qopan rəngsiz, nüvəli hüceyrələrdir.

Onların ən əhəmiyyətli xüsusiyyəti, bir yerə yapışmağa meylli olmalarıdır. Halbuki, trombositlər yalnız qandakı endotel toxuması zədələndikdə yapışqan olurlar. Normal endotel hüceyrələrinə yapışmırlar. Əgər belə olsaydı, trombositlər qan damarlarında toplanar və damarın tıxanmasına səbəb olardı. Bu, çox vaxt ölümlə nəticələnərdi.

Trombositlərin belə bir şüurlu davranış nümayiş etdirməsinin həyati əhəmiyyət daşıdığı aydındır. Endotel hüceyrələrinin zədələndiyini dərk edib dərhal hərəkətə keçmək, qərar verməK və tədbir görmək

Varlığından belə xəbərdar olmadığımız "şüursuz" bir hüceyrə həyatımızın davamını təmin etmək üçün var gücü ilə çalışır, tədbir görüb həyata keçirir.

Açıq sual var- Trombositlər niyə hər gördüyü toxumaya deyil, yalnız zədələndiyini anladığı toxumaya yapışır və qərarında tərəddüd etmirlər? Şüursuz varlıq bunu necə edə bilər?

(Ardı olacaq)

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
7 may
2025-ci il

# Gələn ay Rusiyaya vizasız gələnlər üçün yeni qaydalar qüvvəyə minəcək



İyunun 30-dan Rusiyada vizasız rejim əsasında bu ölkəyə gələn xarici vətəndaşlar üçün yenilənmiş rəqəmsal qeydiyyat sistemi qüvvəyə minəcək. Yeni prosedura əsasən, onlar "Dövlət Xidmətləri RuID" portalı vasitəsilə əvvəlcədən xüsusi QR kodu əldə etməlidirlər.

Belə ki, əcnəbilər ölkəyə girişə azı üç gün qalmış rəqəmsal identifikasiyadan keçməlidir: şəxsi məlumatları, səyahət məqsədi, marşrutu və Rusiyada qalma ünvanını daxil etməli, həmçinin foto və sənədlərin skanını yükləməlidir. Fövqəladə hallarda (qohumun xəstəliyi və ya ölümü) girişdən dörd saat əvvəl qeydiyyata icazə verilir. Ərizə 90 gün ərzində etibarlıdır. Alınan QR kodu sərhəd nəzarətindən keçərkən təqdim olunur.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu gün 28 dərəcə isti olacaq



Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki,mayın 6-dan 7-nə keçən gecə bəzi yerlərdə az çiskinli olacağı, gündüz isə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 55-60 % olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Havanın temperaturu gecə 15-18° isti, gündüz 23-28° isti, dağlarda gecə 3-8° isti, gündüz 13-18° isti olacaq.



# Şəmkirdə tələbə intihar edib

Şəmkirdə intihar hadisəsi baş verib. SİA-nın məlumatına görə, hadisə rayonun Çinarlı qəsəbəsindəki meşəlik ərazidə qeydə alınıb. Qəsəbə sakini, 2006-cı il təvəllüdlü İ.Məmmədov ağacdan özünü asıb. Onun meyiti asılmış vəziyyətdə tapılıb. İntiharın səbəbi məlum deyil, aidiyyəti qurumlar tərəfindən araşdırılır.

Qeyd edək ki İ.Məmmədov Azərbaycan Dövlət Aqrar Universitetinin 2-ci kurs tələbəsi idi.

# Bank kartlarından bir gündə 13 min manatdan çox pul oğurlanıb

Vətəndaşların bank kartlarından oğurluqlar davam edir. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır: "Bu məlumatlar naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında Sizə zərər vuracaqlar. Mayın 5-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 2999, 1950, 1040, 1000, 1000, 1000, 999, 744, 713, 560, 498, 347, 43 manat və 90 avro pul vəsaitləri bank kartlarından oğurlanıb.



Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var".

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000